www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 13 aprel 2016-cı il Çərşənbə № 78 (6399) Qiymәti 60 qәpik

**Xəbər**

## Bakıda iki dəhşətli intihar

yazısı səh.15-də

**Gündəm**

### MSK-nın yeni tərkibi bilindi-sədr müəmması qalır...



YAP-ın mətbuat katibi Hüseyn Paşayev yeni görəv alacaq, quruma kimin başçılıq edəcəyi isə yaxın günlərdə bilinəcək

yazısı səh.10-da

### Prezident islahatların davam edəcəyini dedi

yazısı səh.5-də

### "Freedom House"nin illik hesabatı birmənalı qarşılanmadı

yazısı səh.6-da

### "Lənkəranski" kürd mafiozlara qarşı - Ural uğrunda savaş qızışır

yazısı səh.13-də

### Şəhid cənazələri siyasi mühitimizi yumşalda bildimi?

yazısı səh.6-da

*Almurad Əliyev:*

### "Elçibəyin bütün əşyaları evindədir..."

yazısı səh.11-də

### Azərbaycanlı iş adamının erməni hərbçilərə pul təklifinə reaksiya gəldi

yazısı səh.13-də

### Qanlı döyüşlərin səbəbi Talış kəndinin kökü haradan gəlir?

yazısı səh.11-də

### Hakimiyyətə yaxın deputatdan müxalifət liderlərinə haqda xoş sözlər

yazısı səh.6-da

### İlhamə Quliyevanın mirası məhkəmədə bölüşdürüləcək

yazısı səh.3-də

### Yeni mənzil agentliyinin mənası - ayda 80-100 manata ev...

yazısı səh.14-də

### Ölkədə bəzi məlumatların KİV-lərdə yayılması qadağan edilir

yazısı səh.5-də

## Sülh prosesində geriyə dönüş

# QARABAĞ NİZAMLANMASI MEDVEDYEV VARİANTINA QAYIDIR

Putinin müşaviri yaxın həftələrdə yeni prosesin başlayacağının anonsunu verdi; **Sergey Markov:** "Müvəqqəti anlaşma çox yaxındadır"; Dağlıq Qarabağın statusu uzaq tarixə saxlanılır?..




yazısı səh.8-də

## Azərbaycanda "Leşyığanlar şəbəkəsi" milləti zəhərləyir - şok faktlar

**Mütəxəssislər həyəcan təbili çalır; Eyyub Hüseynov:** "Rayonlardan toplanan leşlər gecəyarısı 4-cü mikrorayona gətirilir, orada ona "tovarnıy vid" verib bazara çıxarırlar..."

yazısı səh.12-də



*Qubad İbadoğlu:*

### "Təşkilatımızın bütün sənədləri hələ də Ağır Cinayətlər İdarəsindədir"

yazısı səh.7-də



*Hikmət Hacızadə:*

### "Ermənistan bilir ki, Rusiyadan küssə, Azərbaycan onu əzəcək"

yazısı səh.4-də



*Komitə sədri:*

### "Oğlumun əsgərlikdən yayınması yalandır"

yazısı səh.3-də

## 90 saylı Ağdaş seçki dairəsi üzrə təkrar seçkilər keçiriləcək

**Prezident İlham Əliyev 90 saylı Ağdaş seçki dairəsi üzrə Milli Məclisə təkrar seçkilərin təyin edilməsi haqqında sərəncam imzalayıb. APA-nın məlumatına görə, 90 saylı Ağdaş seçki dairəsi üzrə təkrar seçkilər 2016-cı il iyunun 18-nə təyin edilib.**



## Rəis vəzifəsindən çıxarıldı, direktor oldu

**Samir Rafiq oğlu Nuriyev Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin rəisi vəzifəsindən azad edilib. APA-nın məlumatına görə, prezident İlham Əliyev müvafiq sərəncam imzalayıb. Samir Nuriyev Mənzil İnşaatı Dövlət Agentliyinin direktoru təyin edilib.**



## Məleykə Abbaszadə DİM-in Direktorlar Şurasının sədri təyin olundu

**Prezident İlham Əliyev Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurası sədrinin təyin edilməsi haqqında sərəncam imzalayıb. APA-nın məlumatına görə, bu vəzifəyə Məleykə Abbaszadə təyin olunub.**

M. Abbaszadə ləğv edilmiş TQDK-nın sədri olub.

## XİN yunan və latviyalı deputatların işğal olunmuş ərazilərə səfərini pislədi

**Azərbaycan Xarici İşlər Nazirliyi Yunanıstan parlamentinin üzvü Qarifalia Kanelli və Latviya parlamentinin üzvü Serqeys Potapkinsin Azərbaycanın işğal olunmuş ərazilərinə səfərinə münasibət bildirib.**

Azərbaycan XİN-in mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev APA-ya açıqlamasında beynəlxalq hüquqa zidd olaraq 11 aprel tarixində Azərbaycan Respublikasının işğal olunmuş ərazilərinə bu qanunsuz səfəri qərəzli və təhrikçi yanaşma kimi qiymətləndirib: "Yunanıstan və Latviyanın Ermənistan-Azərbaycan münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında danışıqlar yolu ilə həllinə dair mövqeyinə və ölkələrimizin qanunverici orqanları arasında olan əməkdaşlığın ruhuna zidd olaraq bu kimi birtərəfli addım atması Ermənistanın təxribatçı əməllərinin təşviqinə və onsuz da ağır olan vəziyyətin daha da gərginləşməsinə xidmət edir. Ölkələrimiz arasında mövcud olan dostluq və qarşılıqlı anlaşmadan çıxış edərək, sözügedən məsələ ilə əlaqədar Latviya və Yunanıstandakı səfirliklərimiz Azərbaycanın narahatlığını bu ölkələrin aidiyyəti dövlət orqanlarına çatdıracaq".


## "Qaya Mətbuat Yayımı" MMC!

**- İtənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı sldıqdan sonar abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,

**Telefonla zəng etməyiniz kifayətdir:**


# Şamaxıda və universitetlərdə Qarabağa dair petisiya müzakirə olundu





**Aprelin 12-də Şamaxıda rayon ziyalılarının və ictimaiyyət nümayəndələrinin iştirakı ilə Ağ Ev Administrasiyasının internet resursunda Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasının (AVCİYA) prezidenti, deputat Elxan Süleymanovun imzası ilə Dağlıq Qarabağa dair Obama Administrasiyasına ünvanlanan petisiya ilə bağlı tədbir keçirilib.**

AVCİYA-dan musavat.com-a verilən məlumata görə, tədbiri giriş sözü ilə millət vəkili Elxan Süleymanovun səlahiyyətli nümayəndəsi, pedaqoji elmlər üzrə fəlsəfə doktoru Dəyanət Musayev açıb.

Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi 1 dəqiqəlik sükutla yad edilib. Elxan Süleymanov çıxış edərək, petisiyada irəli sürülən məqamların bu yaxınlarda qəbul edilən AŞ PA-nın 2085 (2016) saylı qətnaməsində sadalananlarla üst-üstə düşdüyünü bildirib.

Petisiyada sadalanan tələblərin məzmunu barədə informasiya verən E.Süleymanov onun qəbul edilməsi üçün 100 min insanın səs verməsinin vacibliyini vurğulayıb. Millət vəkili 100 minin də son hədd olmadığını qeyd edərək, şamaxılıları səsvermə prosesində fəal olmağa çağırıb.

Qeyd edək ki, AVCİYA 06.04.2016-cı il tarixində "Ədalətin Bərqərar Olunması və Böyük Fəlakətin Qarşısının Alınması naminə" adlı petisiya layihəsinin icrasına start verib. Layihə çərçivəsində Ağ Ev Administrasiyasının internet resursunda AVCİYA prezidenti Elxan Süleymanovun imzası ilə Obama Administrasiyasına petisiya ilə müraciət olunub (https://petitions.whitehouse.gov/petition/establish-justice-and-prevent-great-catastrophe)

***

Aprelin 12-də bu layihə ilə bağlı Azərbaycan Neft və Sənaye Universitetində də tədbir keçirilib. Universitetin professor-müəllim və tələbə heyətinin iştirak etdiyi tədbiri giriş sözü ilə prorektor Rafiq Camalov açdı. Torpaqlarımızın azadlığı uğrunda şəhid olanların xatirəsi 1 dəqiqəlik sükutla yad olunub. AVCİYA-nın nümayəndəsi, siyasi elmlər doktoru Ramiz Sevdimalıyev petisiya layihəsi ilə bağlı tədbir iştirakçılarını ətraflı məlumatlandırıb.

Aprelin 12-də analoji təbliğat tədbiri Sumqayıt Dövlət Universitetində də keçirilib.

Qarşıdakı günlərdə də aksiya davam edəcək.

❑ **SEVİNC**



## Anası şəhidimizin tabutunu çiynində daşıdı

**Qabil Orucəliyev aprelin 2-dən bu günə qədər cəbhədə davam edən gərginlik zamanı şəhid olan əsgərlərimizdəndir.**

Vətən uğrunda şəhid olan Qabil Orucəliyevin meyiti ailəsinə təhvil verilib.

BiG.AZ xəbər verir ki, şəhidimizin dəfn mərasimində anası oğlunun tabutunu çiynində daşıyıb.

Bitib tükənməyən insan izdihamı ilə müşayiət olunan dəfn mərasimində Naxçıvan sakinləri şəhidi son mənzilə yola salıblar. Anası isə həm şərəflə, həm göz yaşı ilə balası ilə sağollaşıb.

Xatırladaq ki, Q.Orucəliyev Naxçıvan şəhərinin Xıncov məhəlləsində anadan olub. Tərtər istiqamətindəki döyüşlərdə ağır yaralanaraq həyatını itirib. Ölümündən əvvəl oğlu dünyaya göz açıb. Amma Orucəliyev oğlunun nə səsini eşidib, nə də üzünü görüb. Q.Orucəliyev həyatda tək övlad olmaqla yanaşı, həm də atasız böyüyüb.



## Üç ayda qəzalarda 143 nəfər ölüb

**Bu ilin ilk 3 ayında ölkədə 419 yol-nəqliyyat hadisəsi qeydə alınıb. Nəticədə 143 nəfər ölüb, 453 nəfər xəsarət alıb. Baş Dövlət Yol Polisi İdarəsindən APA-ya verilən məlumata görə, 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə qəzaların sayı 110 fakt (20,8%), ölənlərin sayı 80 nəfər (35,9%), xəsarət alanların sayı 102 nəfər (18,4%) azalıb.**

Bakı şəhəri ərazisində 147 yol-nəqliyyat hadisəsi qeydə alınıb, bunların nəticəsində 31 nəfər ölüb, 160 nəfər xəsarət alıb. 2015-ci illə müqayisədə yol-nəqliyyat hadisələrinin, ölənlərin və xəsarət alanların sayı uyğun olaraq 60 fakt (29%), 37 nəfər (54,4%), 61 nəfər (27,6 %) azalıb.

Respublika üzrə qeydə alınmış yol-nəqliyyat hadisələrinin 36,9%-i (155 hadisə, 52 ölüm, 183 xəsarət alan ) ötmə və qarşıdan gələn nəqliyyatın yoluna çıxma, 24,3%-i (102 hadisə, 43 ölüm, 89 xəsarət alan) nəqliyyat vasitələrinin yüksək sürətlə idarə olunması, 13,8%-i (58 hadisə, 10 ölüm, 81 xəsarət alan) yolayrıcılarını keçmə qaydalarının pozulması, 1,1%-i (5 hadisə, 2 ölüm, 5 xəsarət alan) nəqliyyat vasitələrinin sərxoş vəziyyətdə idarə olunması səbəbindən baş verib. Yol-nəqliyyat hadisələrinin 40,8%-ni (171) piyadaların vurulması təşkil edib. Nəticədə 64 piyada ölüb, 119-u xəsarət alıb. 5 yol-nəqliyyat hadisəsi piyadaların yol hərəkəti qaydalarını pozmaları nəticəsində baş verib. Respublika üzrə qeydə alınmış yol-nəqliyyat hadisələri nəticəsində 9 nəfər uşaq və yeniyetmə ölüb, 35 nəfər xəsarət alıb.

## İsrail Azərbaycana yeni dronların satışını planlaşdırır

**Yaxın günlərdə İsrail tərəfindən Azərbaycana yeni pilotsuz uçuş aparatlarının satışı planlaşdırılır.**

APA-nın "panarmenian.net" saytına istinadən verdiyi xəbərə görə, bu barədə İsrailin Merets Partiyasının rəhbəri Zexava Qalonun bu ölkənin müdafiə naziri Moşe Yalona göndərdiyi etiraz məktubunda bildirilir.

Z. Qalon məktubunda müdafiə nazirini silah satışını dayandırmağa çağırıb: "Ermənistan və Azərbaycan İsrail üçün dost ölkələrdir. İsrail silahlarının Dağlıq Qarabağ müharibəsində tətbiq edilməsi qəbuledilməzdir".

Z. Qalon qeyd edib ki, Azərbaycan və İsrailin silah razılaşmalarının ümumi dəyəri 5 milyard dollar təşkil edir.

## Erməni generaldan Qarabağ etirafı: "Anlaşmanı Qorbaçov pozdu..."

**"Dağlıq Qarabağda müharibə Üçüncü Dünya müharibəsini qızışdırmağa çalışan qüvvələrin sayəsində bərpa olub". Musavat.com-un məlumatına görə, bu barədə ehtiyatda olan erməni general-leytenantı, əslən Gəncədən olan Vilen Martirosyan Ukraynanın "Obozrevatel" nəşrinə açıqlamasında konflikt zonasındakı son durumu şərh edərkən bildirib. Onun sözlərinə görə, münaqişəni 1988-ci ildə də, indi də qansız həll eləmək mümkün idi.**

Martirosyan o vaxt Qarabağa dair xüsusi nizamlama komissiyasının üzvü olduğunu xatırladaraq deyib: "O zaman Azərbaycan və Ermənistan prezidentləri arasında mənim də iştirakımla danışıqlar aparılırdı. Prezidentlər ümumi dil tapdılar və bütünlüklə anlaşdılar. Kompromis variant ertəsi gün Moskvaya təqdim edilməli idi. Amma gecə nəsə baş verdi və növbəti gün anlaşlmalar pozuldu".

Erməni general anlaşmaların pozulmasının arxasında SSRİ prezidenti Mixail Qorbaçovun, Ali Sovetin sədri Anatoli Lukyanovun və onların "silahdaşlarının" durduğuna əmindir. "Çünki onlara müharibə lazım idi" - Martirosyan qeyd edib.

"Bu gün Dağlıq Qarabağda müharibə Üçüncü Dünya müharibəsi planları quranlara lazımdır. Dünyada çoxsaylı qaynar məntəqələrin yaradılması bu planı reallaşdırmağın tərkib hissəsidir" - erməni general vurğulayıb. Bununla belə, o, problemdən qansız çıxış yolunun qaldığını da deyib.

Məlumat üçün bildirək ki, Gəncədən SSRİ xalq deputatı olmuş Martirosyan hazırda Ukraynada ictimai-siyasi fəaliyyətlə məşğuldur, Ukrayna parlamentinin - Ali Radanın üzvü olub.

❑ **NURLAN**

YENİ MÜSAVAT
N 78 (6399) 13 aprel 2016

**Prezident İlham Əliyev aprelin əvvəllərində Vaşinqtonda keçirilən 4-cü Beynəlxalq Nüvə Sammitində iştirak etdi. Ölkə başçısı sammit çərçivəsində bir sıra uğurlu görüşlər keçirdi.**

# "Hökumətyönlü mətbuat bunu bacardı"

## 4 günlük savaş ABŞ səfərini arxa plana keçirdimi?

Əksər ekspertlər prezidentin ABŞ səfərini Azərbaycanla Qərb arasındakı münasibətlərin yaxşılaşdırılması istiqamətində yeni bir mərhələ kimi qiymətləndirir. İstər ABŞ rəhbərliyi, istərsə də digər ölkələrin dövlət başçıları ilə keçirilən görüşlər Azərbaycanın gələcəkdə bütün sahələrdə uğurlu inkişafının göstərici kimi qəbul edilir. Uzun zamandır davam edən Azərbaycanın Qərblə soyuq münasibətləri bu səfərlə aradan qalxdı. Amma səfər çərçivəsində diqqətçəkən nüanslardan biri ölkə başçısının Amerikada olarkən cəbhə xəttində atəşkəsin pozulması və başlayan 4 gün savaş oldu. Heç şübhəsiz ki, bu savaş gündəmimizin əsas mövzusuna çevrilməklə yanaşı, prezidentin uğurlu ABŞ səfərini bir qədər arxa plana keçirdi. **Beynəlxalq əlaqələr üzrə ekspert Razi Nurullayev hesab edir ki, prezidentin ABŞ səfərindən sonra bu məsələ gündəmdə qalıb:** "Hökumətyönlü mətbuat orqanları bu səfəri gündəmdə saxlamağı bacardılar. Əslində həmin təbliğat bu gün də davam edir. Açığı, mən prezidentin Amerika səfərinin Qarabağda baş verən 4 günlük savaşla əlaqəsinin olduğu düşüncəsində deyiləm. Çünki Rusiyanın Azərbaycanın Qərblə yaxınlaşmasına görə belə addım atdığını düşünmək düzgün olmazdı. Ona görə ki, Azərbaycan hələ Rusiyanın orbitindən çıxmayıb. Hər iki ölkə arasında yaxın əlaqələr mövcuddur. Azərbaycan Rusiyaya görə Avropa ilə assosiasiya sazişindən imtina edib. Eyni zamanda Rusiyaya qarşı olan sanksiyaların heç birində yer almayıb. Hətta Rusiyanın iqtisadi problemlərinin aradan qalxması üçün ölkəmiz əlindən gələni edib. Hər iki ölkə arasında geopolitik məsələlərlə bağlı daim müzakirələr gedib. Buna görə də Rusiyanın bu məsələdə narahatçılığının olduğunu düşünmürəm. Prezidentin ABŞ səfərini 4 günlük savaşla bağlamaq məntiqli olmaz".


Razi Nurullayev

**YAP funksioneri Aydın Mirzəzadə Azərbaycan cəmiyyətinin ölkədaxili gedən proseslərə böyük maraq göstərdiyini söylədi:** "Taleyüklü məsələlər ictimaiyyətimizin əsas müzakirəsinə çevrilir. Hər kəsin belə məsələlərlə bağlı öz düşüncəsi olur. Cənab prezidentin uğurlu səfəri çərçivəsində müzakirə olunan məsələlər, ərazi bütövlüyümüz və digər məsələlərlə bağlı keçirilən önəmli görüşləri ölkə başçısının uğurlu xarici siyasətinin davamı kimi qəbul etmək olar. Cənab prezident vaxtaşırı xarici ölkələrə səfər edir. Bunların hər birinin ABŞ səfəri kimi müsbət nəticələri olur. Bu gün ölkəmiz xarici aləmdə qazandığı uğuru dəyərləndirə bilir. Həmin uğurlar təkcə ABŞ səfərindən ibarət deyil. Ölkə başçısının xarici səfərləri düşünülmüş xarici siyasət kursudur. Bu kursun içərisinə prinsipiallıq və digər məsələlər daxildir. Diqqətimiz bir səfər və onun nəticələrinə yönəlməməlidir. Diqqətimiz Azərbaycanın bugünkü vəziyyətinə və beynəlxalq aləmdəki uğurlarına yönəlməlidir. Azərbaycan vətəndaşı uğurumuza və onu gətirən yüksək siyasətə diqqət ayırır. Bundan sonra da ölkə başçısının uğurlu səfərlərinin şahidi olacağıq".

❑ Cavanşir ABBASLI


Nazim İbrahimov

# Komitə sədri: "Oğlumun xidmətdən yayınması yalandır"

## Nazim İbrahimov oğlunun hərbi xidmətdən yayınması barədə məlumatlara münasibət bildirib

**Diasporla İşü zrə Dövlət Komitəsinin sədri Nazim İbrahimov müddətli hərbi xidmətdə olan oğlu Elnur İbrahimovun xidmətdən yayınması, vaxtını istirahətdə keçirməsi ilə bağlı yayılan xəbərlərə və fotolara münasibət bildirib.**


Elnur İbrahimov

N.İbrahimov APA-ya açıqlamasında bildirib ki, bəzi kütləvi informasiya vasitələrində Elnur İbrahimov haqqında yayılan məlumatlar tamamilə əsassızdır.

O diqqətə çatdırıb ki, bu məlumatlar böhtan xarakteri daşıyır və dərc olunan fotolar E.İbrahimovun hərbi xidmətə getməsindən xeyli əvvələ aiddir: "Elnur İbrahimov hazırda xidmət keçdiyi hərbi hissədədir və Vətən qarşısında borcunu ləyaqətlə yerinə yetirməyə çalışır. Onun olduğu hərbi hissədə nizam-intizam qaydaları o qədər ciddidir ki, hətta qanuni məzuniyyətdə olduğu dövrdə belə hərbi hissənin yerləşdiyi rayonun ərazisini tərk etməyə icazə verilmir, nəinki harasa istirahətə getməyə. Hesab edirik ki, kütləvi informasiya vasitələrinin nümayəndələri xüsusilə indiki həssas məqamda bu cür yoxlanılmamış məlumatları yaymaqdan çəkinməli, belə düşünülməmiş addımların cəmiyyətdə süni gərginlik yarada biləcəyini nəzərə almalıdırlar. İnanırıq ki, bu "məlumat" indiki həssas məqamda məqsədli olaraq dövriyyəyə buraxılmayıb, sadəcə, bəzi media nümayəndələrinin qeyri-peşəkar fəaliyyətinin nəticəsi olaraq meydana çıxıb. Bəzi jurnalistlər nəzərə almalıdırlar ki, belə əsassız informasiyalar Azərbaycan Silahlı Qüvvələrinin nüfuzuna da xələl gətirə, silahlı qüvvələrimizdə intizam qaydalarına riayət olunmaması kimi yanlış təsəvvür formalaşdıra bilər".

Komitə sədri sonda bir daha bildirib ki, Elnur İbrahimov hazırda hərbi xidmətini davam etdirir və onun xidmətdə olduğu hərbi hissədə nizam-intizam qaydalarına kifayət qədər ciddi riayət olunur: "Enur Azərbaycan Silahlı Qüvvələrində xidmət etməkdən şərəf duyur".

# İlhamə Quliyevanın mirası məhkəmədə bölüşdürüləcək

## Vəkil: "Bəzi məsələlər var ki, onları dəqiqləşdirmək üçün bir neçə məhkəmə işi açılmalıdır"

**Bu günlərdə mərhum müğənni İlhamə Quliyevanın başa çatan 40 mərasimindən sonra qalmaqallı mirası yenidən gündəmə gəldi. Hər kəs maraqla miras qalmaqalının nə ilə nəticələnəcəyini gözləyir. Orxan Nadirovun sənəd üzərində heç də İlhamənin oğulluğu olmadığı və buna görə də mirasdan ona heç nə çatmayacağı barədə səslənən iddialar mal-mülk davasını daha da intensivləşdirib. Orxan Nadirov və onun vəkili bundan öncə açıqlamalarında bildirirdilər ki, mirasla bağlı məsələlərin həllinə 40 mərasimi başa çatdıqdan sonra başlanılacaq.**


İlhamə Quliyeva

"Artıq bununla bağlı istintaq işi açılıb". Bu sözləri Orxan Nadirovun vəkili Habil Vəliyev "Yeni Müsavat"a açıqlamasında bildirib. Onun sözlərinə görə, miras davası paralel olaraq bir neçə məhkəmədə aparılacaq. Vəkil məhkəmələrlə bağlı geniş açıqlama verməmk istəmədi:

"Bəzi məsələlər sirr olaraq qalmalıdır ki, bu işlərə narahatçılıq yaratmasın. Mirasla bağlı yeni bir məhkəmə iddiası da irəli sürmüşük. Orxan Nadirovun hüquqlarının tanınması və sair məsələlərlə bağlı. Amma bu haqda hələ ki mətbuata açıqlama verməyəcəm. Çünki bəzi məsələlər ortalıqdadır. Bu məsələlər öz həllini tapandan sonra vərəsəliklə bağlı məhkəmə gedişatından danışacağıq. Yeni bir mərhələ açılacaq."

**Vəkil digər maraqlı faktları da açıqlayıb:** "Orxan Nadirov əgər sənəd üzərində onun oğulluğu olmasa belə, qohumu kimi də ona miras qalır. Bilirsiz ki, Orxan Nadirov İlhamə xanımın yaxın qohumudur. İlhamə xanım onu yaxın qohumundan övladlığa götürüb. Bir sözlə, onlar doğma qohumdurlar, yad deyillər".

Qeyd edək ki, İlhamə Quliyevanın vəkili Elmira Məmmədova mətbuata açıqlamasında bildirmişdi ki, sənətçinin mirasına Bakının mərkəzində yerləşən 4 evi, iki avtomobili, çoxlu miqdarda qızıl-zinət əşyaları daxildir. Ümumilikdə isə mirasın dəyərləndirilməsi 2 milyon manatdır. Bəzi iddialara görə, Orxan Nadirov qanuni olaraq onun oğulluğu olmadığı üçün 2 milyonluq mirasdan ona heç cür pay düşməyəcək.

Xatırladaq ki, xalq artisti bu il fevralın 25-də tromboemboliyadan dünyasını dəyişib.

❑ Xalidə GƏRAY

# Ali Məhkəmə 29 nəfərin şikayətinə baxacaq

**Aprelin 14-də Ali Məhkəmədə hakim İnqilab Nəsirovun sədrliyi ilə 29 nəfərin barələrindəki hökmdən verdikləri kasasiya şikayətinə baxılacaq. Məhkəməyə şikayət edənlər "Eurovision-2012" mahnı yarışması ərəfəsində prezidentə sui-qəsdə cəhdə hazırlıqda, Milli Təhlükəsizlik Nazirliyinin (MTN) polkovnikini öldürməkdə və digər ağır cinayətlərdə ittiham olunaraq müxtəlif müddətlərə azadlıqdan məhrum edilən Azərbaycan vətəndaşlarıdır. 29 nəfərin adından redaksiyamıza daxil olan müraciətdə bildirilir ki, barələrində çıxarılmış məhkəmə hökmü ədalətsiz, əsassız və qeyri-qanunidir.**

"Bizlər ittiham üzrə özümüzü təqsirli bilmirik. Bizə elan olunan maddələr üzrə nəzərdə tutulan əməlləri törətməmişik və məhkəmə zamanı da həmin əməlləri törətməyimiz sübuta yetməyib. 4 ildir ki, etmədiyimiz cinayətlərə görə cəza çəkirik. Cinayət işinin materiallarında olan ifadələri ağlasığmaz işgəncələr, yaxınlarımızın MTN-ə gətirilərək saxlanılması kimi xoşagəlməz hərəkətlərə yol verməklə bizlərə imzalatdırıblar. Hətta hamilə qadınları və azyaşlı uşaqları belə MTN-ə gətirməklə bizləri özlərinin istədikləri ifadələrə imza atmağa, kamera qarşısında istədiklərini söyləməyə məcbur ediblər. İbtidai istintaq zamanı fiziki və psixoloji təsir altında imzalatdırdıqları ifadələri sonradan məhkəmə hökmünə köçürüblər. Məhkəmələrdə bizlər günahsız olduğumuzu, ittihamı qəbul etmədiyimizi bəyan etmişik. Buna baxmayaraq, Bakı Ağır Cinayətlər Məhkəməsində ittiham aktını hökmə köçürməklə barəmizdə 8-15 il, 3 nəfəri isə ömürlük olaraq azadlıqdan məhrum ediblər. Bakı Apelyasiya Məhkəməsinə şikayətimiz də təmin olunmayıb. Bizlərin günahı yalnız namaz qılmağımızdır".

**Müraciət müəllifləri deyirlər ki, onları həbs edərkən çoxları bir-birilərini tanımayıb:** "Bizləri qanunsuz olaraq həbs edəndən sonra deyirdilər ki, sizlik bir şey yoxdur, araşdırma aparıb buraxacağıq. Sonradan isə dedilər ki, sizləri məhkəmədən azad edəcəklər. Məhkəmədə isə məlum oldu ki, bizlərə bütün bunları yalandan deyiblər. Bizim ittiham aktında yazılan cinayətlərə heç bir formada aidiyyətimiz yoxdur. İttiham aktı başdan-ayağa uydurmadır. Biz bir dəstənin üzvləri idiksə, necə olurdu ki, məhkəmələrdə bir-birimizlə tanış olurduq?"

Müraciət müəllifləri ümid edirlər ki, Ali Məhkəmə 29 nəfər Azərbaycan vətəndaşının günahsızlığını ortaya qoymaq üçün müvafiq qərar qəbul edəcək.

❑ E.MƏMMƏDƏLİYEV

YENİ MÜSAVAT
N 78 (6399) 13 aprel 2016

# Ermənilərin Rusiyanı söyməkliyi - işğalçı ölkə niyə qəzəblənib?

**Ermənistanın “Aravot” qəzetində dərc olunmuş “Dağlıq Qarabağda Rusiya təbliğatı” başlıqlı məqalədə deyilir ki, Rusiyanın kütləvi informasiya vasitələri Ermənistanı az qala quberniya sayır, ermənilərin maraqlarını və mənafelərini əsla nəzərə almır.**

Son toqquşmalardan sonra Ermənistanda Rusiyanı söyürlər, bayrağını yandırırlar, Moskvanın erməniləri satdığını rəsmən bəyan edirlər. Erməni mətbuatı bugünlərdə “Əfsus ki, azərbaycanlılardan fərqli olaraq biz sonadək qürurlu davrana bilmirik. Rusiya indi bizə az qala ayağını silir, biz isə hələ də Rusiyaya inanır, onu özümüzə etibarlı müttəfiq, böyük qardaş sayırıq. Bütün bunlar yanlış düşüncələrdir” mövqeli yazılar dərc edir. Nə baş verir, bu, Rusiya və Ermənistan arasında bir oyundur, yoxsa doğrudan da Qarabağ məsələsində Kreml artıq erməniləri himayə etmir? Moskva-İrəvan münasibətləri nə vəd edir?

“Ermənistanda Rusiya əleyhinə etirazların başında dayananlardan biri Sərkisyan olsa da, faktiki olaraq hakimiyyət Qarabağdakı son uğursuzluqların günahını üzərindən atmağa və diqqəti Moskva-Bakı arasındakı hərbi ittifaqa yönəltməyə çalışır”.

**Deputat, Milli Məclisin Təhlükəsizlik, müdafiə və korrupsiya məsələləri komitəsinin üzvü Zahid Oruc** bu fikirləri “Yeni Müsavat”a açıqlamasında söylədi. Onun sözlərinə görə, halbuki heç kəs soruşmur ki, büdcənin boş olmasının, iqtisadi geriliyin və regional təcridolunmanın səbəbi nədir: “Məgər qalib ölkənin tərəfdaşları çox olmalı deyildimi? Yoxsa sovetlər birliyinin tarixində olduğu kimi, almanlar üzərində qalibiyyət sonrakı illər imperiyanın çöküşünü daha çox sürətləndirdisə, indi düşmən İrəvanı Xankəndi ilə birləşdirib onu vahid bir dövlətə çevirmək xülyasının altını çəkir. Yəni 80-ci illərin metallomu ilə vuruşduğunu deyən bir ölkənin rəhbərinə ”ötən dövrdə ələ keçirdiyiniz əraziləri böyük investisiyaların və əhali məskunluğunun mərkəzinə niyə çevirə bilmədiniz" sualını hər kəs ona verə bilər. Cavab hər kəsə aydındır. Hətta ermənilərin 100 min ordusu olsa belə, onu səngərə yığıb ömrü boyu orada saxlamaq mümkün deyil. Ona görə də Rusiyanı, yaxud beynəlxalq təşkilatları qınayanlar bir müddət sonra erməni ideoloqlarının bir xalqa hansı avantürist ölüm planları hazırladıqlarına şahid olacaqlar".

**Z.Oruc xatırladtı ki, indi ermənilər 1921-ci il Moskva müqaviləsindən tutmuş, 90-cı illərdə sovet hərbi birləşmələrinin Azərbaycan tərəfdən vuruşması iddialarına qədər, hamısını Kremlin ayağına günah kimi yazır:** “Onlar imperiyaya xidmət edən minlərlə ermənin qəhrəmanlığının əvəzinin xəyanətlə verildiyini qeyd edirlər. Halbuki tarix ermənilərin qafqazlardakı mövcudluğunu və siyasi vahid kimi meydana çıxarılmasını Moskvanın ssenarisindən kənarda



**Hikmət Hacızadə:** “Ermənistan bilir ki, Rusiyadan küssə, Azərbaycan onu əzəcək”



**Arzu Nağıyev:** “Bu məğlubiyyəti kiminsə ayağına yazmaq lazımdır”

nəzərdən keçirə bilmir. Yəni Sərkisyan yaxşı anlayır ki, bütün erməni xalqını Putinin əleyhinə ayağa qaldırsa da, Rusiya prezidentinin qərarları dəyişməyəcək, yaxud Qərb gəlib onlara sahib çıxmayacaq. 4 günlük müharibə Ermənistanın xarici siyasət adında həyata keçirdiyi məhəlli boşboğazlığı darmadağın etdi və siyasi təklənmiş olduğunu üzə çıxardı. İndi hətta Roma katolik kilsəsi də Talış və Lələtəpə yüksəkliyini qaytaran Azərbaycan ordusunu mühakimə etmək üçün ermənilərə qoşulub bəyanat vermək istəmir. Ona görə hətta Sərkisyan devrilsə də heç bir erməni rəhbərinin Moskvadan kənara getməyə siyasi bileti yoxdur. Bir xalq özünün xarakterinə və ideallarına görə özünü bölgədə vassallığa məhkum edib. Ermənistan 1991-ci ildə müstəqilliyini elan etsə də, ona hələ nail olmayıb”.

**Politoloq Hikmət Hacızadə son günlər Ermənistanda baş qaldıran anti-Rusiya dalğasını şərh edərkən ilginc açıqlama verdi. Onun fikrincə, Kreml bu əməliyyatları əvvəlcədən Azərbaycanla danışıb:** “Azərbaycan deyib ki, ”sizin yanınızda olacağıq, imkan verin ermənini 5 rayonu boşaltmağa sövq edək, biz başlayaq, siz qarışmayın". Yəni “bir az irəliləyək, sonra dayanaq və bununla ermənini danışıqlara gətirək”. Rusiya da razılaşıb". **H.Hacızadə şübhə etmir ki, erməni tərəf bu barədə məlumatlı olduğu üçün Rusiyanı “satqın” adlandırır, onu açıq şəkildə təhqir edir. Bəs bu situasiya İrəvan-Moskva münasibətlərini poza bilərmi, yoxsa Gümrüdəki olay zamanı olduğu kimi ötüb keçəcək? H.Hacızadə:** “Ermənistan rusun ovcundadır, o, Moskvaya heç nə edə bilməz. Ermənistan bilir ki, Rusiyadan küssə, Azərbaycan onu əzəcək”. Politoloq hesab edir ki, Qərb də bu gün Rusiya və Azərbaycanın razılaşdırdığı planı dəstəkləyir. Ona görə də Qərbdən proseslərə ciddi müdaxilə müşahidə olunmur. H.Hacızadə Ermənistanın təkləndiyi qənaətindədir.

**Politoloq Arzu Nağıyev də düşünür ki, bu, ermənilərin son məğlubiyyətdən sonrakı hay-küyündən başqa bir şey deyil:** “Qeyd etmək lazımdır ki, bu məğlubiyyəti kiminsə ayağına yazmaq lazımdır. Bu, ən çox öz hakimiyyətini saxlamağa çalışan Sərkisyan və onun komandasına lazımdır. Rusiyanın baş nazirinin müavini Dmitri Roqozin öz çıxışında bildirdi ki, Ermənistan onların KTMT üzvü kimi tərəfdaşıdır. Azərbaycan isə regionda strateji əməkdaşı və silahını alan bir dövlətdir. Kreml erməniləri daim himayə edib və edəcək, bu, aydın məsələdir”. **A.Nağıyevin fikrincə, Sərkisyan və onun komandası Rusiyanı qane edir və onu dəyişdirmək planı yoxdur:** “Çünki Ermənistan iqtisadiyyatının yarısından çoxu Rusiya tərəfindən idarə edilir, həm də hərbi bazaları bu ərazidədir. Bundan başqa, Türkiyə - Ermənistan sərhədi, daha doğrusu, NATO-Rusiya sərhədi də Ermənistan ərazisindən keçir. Bununla yanaşı, unutmaq lazım deyil ki, Rusiya Dağlıq Qarabağ münaqişəsinin həlli üçün yaradılan ATƏT-in Minsk Qrupunun həmsədrlərindən biridir və açıq şəkildə çox münasibət bildirməkdən çəkinir. Moskva-İrəvan münasibətlərinin perspektivinə gəldikdə isə düşünürəm ki, Ermənistan Rusiyanın forpostu kimi qalacaq və bu qaldırılan məsələlər isə siyasi oyunlardan başqa bir şey deyil”.

❑ **E.PAŞASOY**

# Düşmən mediası yenə də Əli Kərimliyə istinad etdi

## Savaşlar daha çox informasiya xarakteri daşıyır; bunu bilən AXCP sədri nə üçün statuslarına ara vermir?

**Erməni mediası AXCP sədri Əli Kərimlinin sosial şəbəkədə yazdıqlarını tirajlamaqda davam edir. Kərimlinin 4 günlük savaşdan sonra Azərbaycan ordusu, verilən itkilər və ölkə iqtidarının apardığı siyasəti tənqid etmək üzərində qurulan əksər facebook statusları bir andaca erməni mediasının manşetinə daşınır.**

Son olaraq, Ermənistanda fəaliyyət göstərən ru.1in.am saytı yenidən AXCP sədri Əli Kərimlinin çıxışından sitat gətirərək manşet yazısı verib. Yazının başlığı belədir: “Milyard dollarlar israf etmiş ordu bu qədər itki verməməliydi - Azərbaycan müxalifəti”.

Xəbərdə bildirilir ki, Azərbaycanın əsas müxalifət partiyası olan AXCP-nin lideri Əli Kərimli silahlanmaya on milyardlarla dollar pul sərf etmiş ordunun bu qədər itki verməməli olduğunu deyib. Erməni saytı bu sözlərin “Azadlıq” qəzetində yazıldığını qeyd edib.

**Sayt yazır:** “Əli Kərimli itkiləri əks etdirən gerçək rəqəmlərin xalqdan gizlədilməsindən narazılığını bildirib və qeyd edib ki, onlar bu rəqəmləri sosial şəbəkələrdən və jurnalistlərdən dəqiqləşdirməyə məcburdurlar”.

“Beləliklə, hakim Yeni Azərbaycan Partiyası bir daha göstərdi ki, onun üçün prioritet məsələ Qarabağ deyil, öz hakimiyyətinin qorunub saxlanmasıdır”, - deyə erməni saytı AXCP sədrindən sitat verib.

Düşmən ölkənin mediasının Kərimli ilə bağlı son istinadından sonra suallar meydana çıxıb: Bundan əvvəl bir sıra statuslarının erməni mətbuatının əsas xəbərlərindən birinə çevrilməsinin şahidi olan AXCP sədrinin hələ də bu tərzdə yazılar paylaşmaqda davam etməsi müəmmalı olaraq qalmaqda davam edir. Həssas məqamda belə statuslar paylaşmağa ehtiyac varmı? Bu anlaşılan deyil.

Reallıqdır ki, belə çətin durumlarda hər bir ölkənin müxalifəti ya iqtidarın yanında olur, ya da mövqe bildirmədən susur. Düşmən dəyirmanına su tökmək nəyə gərəkdir?

Onu da unutmaq olmaz ki, belə müharibələr daha çox informasiya savaşına da çevrilir. Bəzən bu savaş həlledici amilə çevrilib, düşmənin əlinə fürsət də verə bilər. Kərimli isə bunu bilməmiş deyil.

**Politoloq Natiq Miri hesab edir ki, ictimai fikri formalaşdıran şəxslər ifadələrində diqqətli olmalıdırlar:** “Hər bir insan istənilən fikri deməkdə azaddır. Bu haqqı hər bir insandan tanımaq məcburiyyətindəyik. Amma nəzərə alanda ki, o insanlar ictimai fikri formalaşdıra bilirlər, konkret sosial və siyasi status daşıyırlar, cəmiyyətdə öndə gedən şəxslərdir, bu insanlar mütləq mənada bütün ifadələrində diqqətli olmalıdırlar. Xüsusilə söhbət düşmənlə bir savaşdan gedirsə, nəzərə almaq lazımdır ki, istənilən mübarizə çərçivəsində öndə olan məsələ şəxsi maraqlar deyil. Dövlətin və cəmiyyətin maraqları öndə olmalıdır. Belə bir savaş çərçivəsində şəxsi maraqlar arxa plana keçməlidir. İstənilən bir məsələyə münasibətdə şəxsi qərəzin ortaya qoyulması düzgün deyil. Hətta hakimiyyəti sevməsən belə ortada olan qərəz cəmiyyət tərəfindən doğru qəbul edilmir. Hər bir şəxsin tutduğu statusundan asılı olmayaraq, onun vətəndaşlıq mövqeyi olmalıdır. Bunu unutmaq olmaz. Prezidentindən tutmuş fəhləsinə qədər hər bir şəxs bu məsələdə öz vətəndaş mövqeyini ortaya qoymalıdır. Bu, dövlət və cəmiyyətin milli maraqları çərçivəsindən yana olmamalıdır. Bunun başqa alternativi yoxdur”.

Qeyd edək ki, bundan əvvəl erməni saytları bir neçə dəfə Əli Kərimlinin Qarabağ cəbhəsində hərbi əməliyyatların şiddətlənməsi ilə əlaqədar sosial şəbəkədə yazdığı və peşəkar mediada dərc olunan fikirlərindən sitatlara yer verməyişdi. Əli Kərimli düşmən mediasının fikirlərinə məmnuniyyətlə istinad etdiyi yeganə müxalifətçidir.

Onu da bildirək ki, AXCP sədrinin üzərinə hücumlar məhz bu çıxışlardan və həmin sitatların erməni mediasında yer almasından sonra başlayıb.

❑ **Cavanşir ABBASLI**

# Prezident islahatların davam edəcəyini dedi

## Dövlət başçısı Azərbaycandakı Amerika Ticarət Palatasının nümayəndə heyətini qəbul edib

**Prezident İlham Əliyev aprelin 12-də Azərbaycandakı Amerika Ticarət Palatasının nümayəndə heyətini qəbul edib. APA-nın məlumatına görə, prezident Palatanın üzvü olan şirkətlərin ölkəmizdə uzun illərdir fəaliyyət göstərdiklərini və Azərbaycanın iqtisadi inkişafına böyük töhfələr verdiklərini vurğulayıb.**

Azərbaycandakı Amerika Ticarət Palatasının 20 il bundan əvvəl yaradıldığını deyən dövlət başçısı bunun ölkəmizdə sürətli iqtisadi artımın başladığı dövrə təsadüf etdiyini bildirib.

Bu yaxınlarda ABŞ-a uğurlu səfərini xatırladan prezident İlham Əliyev Nüvə Təhlükəsizliyi Sammitində iştirak etdiyini, Birləşmiş Ştatların siyasi rəhbərliyi, vitse-prezidenti, dövlət katibi ilə görüşdüyünü, bu görüşlərdə siyasi, iqtisadi, enerji təhlükəsizliyi, həmçinin Amerika Ticarət Palatasının Azərbaycandakı fəaliyyəti ilə bağlı məsələlərin müzakirə olunduğunu qeyd edib. Qarşıda duran planlar barədə danışan dövlət başçısı Azərbaycanın biznes ictimaiyyəti ilə mütəmadi görüşlər keçirdiyini vurğulayıb.

Prezident İlham Əliyev bildirib ki, neftin qiymətinin kəskin şəkildə aşağı düşməsi islahatlarla bağlı daha çox işlərin görülməsini aktuallaşdırıb. **"İnkişaf etmiş ölkələrin heç biri neft və qaz ilə zəngin deyil. Lakin innovasiya, biznes mühiti, texnologiya sayəsində bu ölkələr inkişaf edərək dünyanın aparıcı qüvvəsinə çevrilə biliblər".**




İxracın stimullaşdırılması və sahibkarlıq fəaliyyətinin asanlaşdırılması üçün ciddi tədbirlərin görüldüyünü deyən dövlət başçısı ixracyönümlü iqtisadiyyatın yaradılması üçün daha hansı addımların atılmasının mümkünlüyü ilə bağlı Azərbaycandakı Amerika Ticarət Palatasının təkliflərini eşitmək arzusunda olduğunu vurğulayıb.

ABŞ-ın Azərbaycandakı səfiri Robert Sekuta, "Ernst and Young" şirkətinin nümayəndəsi İlqar Vəliyev, Azərbaycandakı Amerika Ticarət Palatasının birinci vitse-prezidenti və "Societe Generale" şirkətinin ölkəmizdəki nümayəndəsi Teybə Quliyeva, "Holcim" şirkətinin nümayəndəsi Rosen Papazov, "Deloitte and Touche" MMC-nin Azərbaycan ofisinin nümayəndəsi Nurlan Kərimov, "PWC" şirkətinin nümayəndəsi Mövlan Paşayev, BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qordon Birrel isə çıxış edərək müxtəlif təkliflər irəli sürüblər.

Prezident İlham Əliyev yekun nitqində səslənən bütün təkliflərin ümumiləşdiriləcəyini bildirib. Dövlət başçısı kiçik və orta sahibkarlığa dəstəyin artırılacağını və bu məsələyə xüsusi diqqətin göstəriləcəyini qeyd edib. Prezident İlham Əliyev çıxışında maliyyə və bank sektoruna nəzarətin vacibliyini vurğulayaraq gömrük və vergi sistemindəki müsbət dəyişikliklərlə bağlı fikirlərə görə təşəkkürünü bildirib. "ASAN xidmət"in fəaliyyətinə toxunan dövlət başçısı onun əhatə dairəsinin genişlənəcəyini diqqətə çatdırdı. "**Bu, şəffaflıq, xidmət, mədəniyyət, sıfır korrupsiya və sıfır bürokratiya deməkdir"**, - deyən prezident İlham Əliyev "ASAN"ın Azərbaycan brendi olduğunu da vurğulayıb.

# Ölkədə bəzi məlumatların KİV-də yayılması qadağan edilir

**Milli Məclisin Mədəniyyət komitəsinin aprelin 12-də keçirilən iclasında "Kütləvi informasiya vasitələri haqqında" Qanuna əlavə və dəyişiklik müzakirəyə çıxarılıb.**

APA-nın məlumatına görə, komitə sədri Rəfael Hüseynov layihəni təqdim edib.

Qanunun 11-ci maddəsinə (İnformasiyanın yayılmasına, informasiya mənbəyinin açıqlanmasına yol verilməyən xüsusi hallar) əlavə olunan bəndə görə, "Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində nəzərdə tutulmuş qaydada tərtib edilən və "İnformasiya əldə etmək haqqında" Qanuna uyğun olaraq sənədləşdirilmiş informasiya hesab edilən cinayət təqibi üzrə icraat materiallarının surətlərinin olduğu kimi yayılmasına yol verilməyəcək.

**Maddənin 4-cü bəndi isə dəyişdirilərək belə verilir:** "Yetkinlik yaşına çatmayan şübhəli, təqsirləndirilən və ya zərərçəkmiş şəxslərin şəxsiyyəti barədə hər hansı məlumatların həmin şəxslərin və onların qanuni nümayəndələrinin razılığı olmadan yayılmasına yol verilmir".

**Bəndin hazırda qüvvədə olan variantı isə belədir:** "Cinayət etməkdə təqsirləndirilən yetkinlik yaşına çatmayanların və ya qanuni nümayəndələrinin razılığı olmadan onların şəxsiyyəti barədə hər hansı məlumatın yayılmasına yol verilmir".

R. Hüseynov bildirib ki, belə bir əlavə və dəyişikliklərdə məqsəd bəzən mətbuat vasitələrində hər hansı məlumatın vaxtından əvvəl, şişirdilmiş formada verilərək mövzunun daha arzuolunmaz nəticəyə çatmasının qarşısını almaqdır: "Bu, bütün hallarda KİV-in işini məhdudlaşdırmaq demək deyil".

Layihə Milli Məclisin plenar iclasına tövsiyə olunub.

# Müxalifət 2018-ə qədər nə edəcək?

## Demokratik düşərgə prezident seçkilərinə qədər olan iki ilə ümid edir

**Növbəti prezident seçkilərinə hələ iki il qalıb. Bir sıra siyasi təhlilçilərin fikrincə, seçkilərə xeyli müddət qalması qarşıdakı iki ildə müxalifət düşərgəsinin fəaliyyətinə təsirsiz ötüşməyəcək. Bəs müxalif düşərgə bu müddətdə nə etməyi, fəaliyyətini necə qurmağı düşünür?**

**Müsavat Partiyası başqanının müavini Elman Fəttah** bildirdi ki, Müsavatın siyasi fəaliyyəti antidemokratik mühitin dəyişdirilməsi, azad seçkilər nəticəsində demokratik hakimiyyətin formalaşmasına nail olmaqdan ibarətdir və bu istiqamətdə fəaliyyət davam edəcək: "Bu, Müsavat Partiyasının əsas məqsədidir. 2018-ci ildən daha tez bu hədəfə nail olmaq yönündə fəaliyyətimiz sistemli şəkildə davam edir və edəcək".

**VİP sədri Əli Əliyev isə bildirdi ki, hələlik iki il sonra olacaq seçkiləri konkret dəyərləndirmək çətindir. Həmişəki kimi 2 ssenariyə hazırlıq gedir:** "Birinci versiya, düşərgə hazırlığıdır. İqtidar son onilliklərdə cəmiyyətin əsas resurslarını tavanı altına toplamaqla, xeyli üstünlük əldə edib. Onun yürütdüyü siyasət fərqli düşünənləri sıradan çıxarmaqdır. Formal yaradılmış siyasi sistem yalnız total nəzarətdə olanları əhatə edir. Siyasi sistemin bütün elementləri bütövlükdə YAP siyasətinin atributlarıdır. Sistemin kənarında saxlanılanlar məhvə məhkum edilib. Düzdür, sistemdən kənarda saxlanılanların da içində sistemdənkənar müxalifətlə manipulyasiya üçün "bəslənənlər" vardır. Onlarda işim yox. Düşərgənin, milli azadlıq hərəkatından, ötən əsrin sonlarının meydanlarında formalaşmış nəslin sıradan çıxarılması bütün nəzəri və praktik seqmentlərdə düşünülmüş şəkildə davam edir. Ona görə də bunun qarşısını almağın yolunu düşünmək lazımdır. Bugünkü idarəçilik fəlsəfəsinə yad olanlar prezident seçkiləri üçün vahid platforma formalaşdırmalı, tək namizəd, tək komanda və tək şüarla seçkiyə hazırlaşmalıdırlar. Əgər bu qərar və ya istiqamət seçiləcəksə, Vətəndaş və İnkişaf Partiyası olaraq, istənilən addıma hazır olduğumuzu bildiririk. Biz bunu 2013-cü ildə də deyirdik. Təəssüf ki, o zaman müxalifətin əhəmiyyətli hissəsi Moskvadan sırınan layihəyə qoşuldu. Nəticə ortadadır. Əgər seçkilər yaxınlaşdıqca, 1-ci variant işləməsə, təbii ki, o zaman ya daha kiçik qrupda, ya da təkbaşına kampaniyaya hazırlaşacağıq. Lakin indidən hansı variantın real olduğunu söyləmək çətindir".

**Ə.Əliyevin sözlərinə görə, qarşıdakı 2 il iqtidar üçün də asan olmayacaq. Həm iqtisadi-maliyyə, həm sosial, həm beynəlxalq müstəvidə vəziyyət iqtidarın heç də xeyrinə deyil:** "Son devalvasiyalar göstərdi ki, iqtidarın söykəndiyi iqtisadi baza kövrəkdir. Müharibə də cəmiyyətin kifayət qədər ayıq və praqmatik olduğunu ortaya qoydu. Biznesin monopoliyadan çıxarılması da cəmiyyətdə fəal təbəqənin siyasi proseslərə fərqli baxışdan yanaşacağını proqnozlaşdırmağa əsas yaradır. Bir sözlə, 2018-ci il prezident seçkilərinə inamla hazırlaşmaq, vəziyyətin dəyişəcəyini əminliklə gözləmək lazımdır".

**AMİP katibi Əli Orucov isə dedi ki, konstitusiyaya görə, növbəti seçkilər 2 ildən sonra keçiriləcək. Lakin dünya təcrübəsində gözlənilməz hadisələr kifayət qədərdir. Ona görə də hakimiyyətə gəlməyə can atan və hakimiyyətini sürdürmək istəyən siyasi qüvvələr həmişə sürpriz hadisələrə, gözlənilməz durumlara hazır olmalıdır:** "Partiyaların işi-gücü ancaq seçkilərdən ibarət deyil. Siyasi institutlar öz daimi funksionallığını qorumalı, ictimai nəzarəti təşkil etməli, özünü alternativ güc kimi formada saxlamalıdır. Regionumuz çox həssas dönəmdədir. Bir yandan beynəlxalq terror və radikal dini ekstremizm təhlükəsi, digər yandan xarici dövlətlərin yaratdığı təhdidlər, eyni zamanda sosial-iqtisadi durumun pisləşməsi müxalifət düşərgəsini də daha məsuliyyətli və diqqətli olmağa vadar edir.

Zənnimcə, qeyri-iqtidar düşərgəsinin atmalı olduğu ilk addımlardan biri pərakəndəliyi və inamsızlığı aradan qaldırmaq, köhnəlmiş mübarizə metodlarından əl çəkmək, strateji hədəflərini aydınlaşdırmaq və dəqiqləşdirməkdir. Təşkilatlanma və mütəşəkkilliyə diqqət yetirməlidir. İndidən əsas maraqlar uzlaşdırılmalıdır. AMİP-in bu sadaladığım sahələrdə müəyyən planları olacaq. Lakin ilkin olaraq qurultayımızı keçirmək və yeni dövrə qədəm qoymaq planımızdadır. Bunun üçün də təbii ki, partiyanın qarşısında duran yeni vəzifələr və taktiki addımlar müəyyənləşib təsdiqlənməli, yeni komanda formalaşmalıdır. Partiyanın bütün strukturları tam işlək və çevik vəziyyətə gətirilməlidir. Bunlar çox vacib şərtlərdir".

❑ **Etibar SEYİDAĞA**

# "Qarabağ naminə prezident müxalifətlə də bir araya gələ bilər"

## Hakimiyyətə yaxın deputatdan İsa Qəmbər və Pənah Hüseyn haqda xoş sözlər

**Ermənistan prezidenti Serj Sərkisyanın ölkənin keçmiş prezidenti, müxalifət lideri Levon Ter-Petrosyanla ikincinin təklifi ilə görüşü medianın gündəmindədir. Politoloqlar bu görüşü zəruri edən amillərdən danışarkən qeyd edirlər ki, müharibə şəraitində cəmiyyətin, bütün siyasi qüvvələrin birliyinə nail olmaq baxımından belə görüşlərə zərurət yaranır.**

Bəs Azərbaycanda da ölkə başçısı ilə ölkənin idarəçiliyinə rəhbərlik etmiş və indi müxalifətdə olan şəxslərin görüşünə ehtiyac varmı?

**Milli Məclisin üzvü Zahid Oruc** öncə bildirdi ki, Serj Sərkisyanla Levon Ter-Petrosyanın görüşü ruh düşkünlüyündə olan erməni cəmiyyətinə əlavə nəfəslik vermək, bu şəxslərin birliyi fonunda cəmiyyətdə müşahidə olunan parçalanmanı pərdələmək, Azərbaycan qarşısında özlərinin səfərbərliyini nümayiş etdirmək niyyəti güdüb: "Ancaq erməni mediası bunu siyasi mədəniyyət nümunəsi, müharibə şəraitində bütün umu-küsülərin kənara qoyulması, hər kəsin vahid cəbhədə çıxış eləməsi kimi təqdim etdi. Çox yaxın zamanlarda biz şahidi olacağıq ki, bu atəşkəs erməniləri siyasi cəhətdən də yeyir. Mütləq günahkarlar axtarışı, bu prosesi on illər ərzində Azərbaycan qarşısında məğlubiyyət səviyyəsinə gətirənlərin axtarışı davası gedəcək. Bu, məsələnin çox önəmli tərəfidir. Azərbaycan cəmiyyətində isə Qarabağ məsələsində konsolidasiya, vahid mövqe ilk gündən ortada oldu. Hər kəs, o cümlədən müxalifət bu müharibədə dövlətin və ordunun yanında oldu. Çünki onların hamısı bunu anlayırdılar ki, erməni tərəfi üzərimizə mərmi yağdırarkən ayrıca götürülmüş bir siyasi qüvvəyə zərbə vurmur, bu mərmilər bütün Azərbaycan xalqını hədəf götürüb. On illər ərzində iqtidarlı-müxalifətli bütün cəmiyyət ərazilərimizin bütövlüyünə necə nail ola biləcəyimizi düşünüb. Azərbaycanın dövlət rəhbəri siyasi qüvvələrin liderlərindən kiminləsə görüşə bilərmi sualına gəlincə, əlbəttə, düşünürəm ki, xalqın mütəşəkkilliyi naminə cənab prezident hər zaman böyüklük göstərib. Əgər vacib olarsa, bütün qüvvələr arasında bu cür birlik reallaşdırılar. Məsələn, İsa Qəmbərin davranışları, ortaya qoyduğu mövqe, o cümlədən Pənah Hüseynin tutduğu mövqe, verdiyi açıqlamalar kifayət qədər obyektiv və balanslı idi, Azərbaycanın maraqlarına uyğundur. Onlar göstərdilər ki, ümummilli məsələ ortada olanda hakimiyyətlə müxtəlif siyasi, məhəlli davalarını kənara qoymağı bacarırlar. Əslində belə də olmalıdır, hər kəs bu cür etməlidir. Çünki tabutların üzərindən keçib hakimiyyət uğrunda mübarizə aparmaq heç vaxt uzunmüddətli uğur verməz. Odur ki, böyük müharibə yenidən baş verərsə və hərbi eskalasiya bərpa olunarsa, cəmiyyətdəki səfərbərliyin bütün siyasi qüvvələr və dövlət arasında da gedəcəyinə, hamının bir araya gələcəyinə şübhə eləmirəm. Zənn edirəm ki, orada hər hansı qüvvənin siyasi mənsubiyyətinə baxılmayacaq, çiyin-çiyinə durulacaq".


İsa Qəmbər


Pənah Hüseyn

**Z.Oruc onu da dedi ki, ermənilər Serj Sərkisyanla Levon Ter-Petrosyanın görüşünü bütün erməni cəmiyyətinin birliyi kimi nümunə göstərməkdə yanılırlar:** "Ermənistan cəmiyyətində heç də onların təbliğ etdikləri kimi birlik yoxdur. Bunu keçmiş prezident Robert Köçəryanın Ermənistana gəlsə də ölkə başçısı ilə görüşmək niyyətinin olmadığını bəyan etməsi də göstərir. Köçəryan açıq şəkildə nümayiş etdirdi ki, Sərkisyanla görüşmək niyyəti yoxdur. Bu, o deməkdir ki, 1990-cı illərdəki məlum cinayətkar troykanın birliyi pozulub. Ermənilərdə birlik heç də göstərilən qədər olmayıb və yoxdur. Bu gün erməni cəmiyyətini Azərbaycandan təhlükə adı ilə bir araya gətirməyə çalışan Ter-Petrosyanın əslində bir sonra keçiriləcək parlament seçkilərində koalision hökumət ortaqlığı niyyəti güddüyü söylənilir".

Qeyd edək ki, Ermənistanın daha bir keçmiş prezidenti Robert Köçəryan dövlət başçısı Serj Sərkisyanla görüşməyə hazırlaşmadığını bəyan edib. Onun fikrincə, indi daha vacibi yubanmadan ordunu müasir silahla təmin etmək, şəxsi heyətin hərbi və strateji hazırlığını tezliklə özünə qaytarmaqdır.

❑ Etibar SEYİDAĞA



# Şəhid cənazələri siyasi mühitimizi yumşalda bildimi?

## "Cəmiyyət bu məsələyə doğru qiymət verdi, lakin..."

**2-5 aprel döyüşləri Azərbaycan cəmiyyətində ciddi ruh yüksəkliyinə səbəb olmaqla yanaşı, xalqın sözün həqiqi mənasında birliyini, həmrəyliyini ortaya qoydu.**

Maraqlıdır, cəbhədə baş verən son olaylar, müharibə reallığı Azərbaycan cəmiyyətində iqtidar-müxalifət münasibətlərinin qismən də olsa yumşalmasına təsir göstəribmi? Yoxsa şəhid cənazələri belə ümummilli məsələdə iqtidar-müxalifət yaxınlığını təmin etmək üçün kifayət etməyib?

Məsələ ilə bağlı moderator.az -a açıqlama verən KXCP sədri Mirmahmud Mirəlioğlu cəmiyyətin yaşananlarla bağlı doğru mövqe ortaya qoyduğunu, lakin hakimiyyətin bunu qiymətləndirmədiyini vurğuladı: "Azərbaycan cəmiyyəti bütövlükdə iqtidarsız bu məsələyə çox doğru-düzgün qiymət verdi. Baş verənlərin mahiyyətinə uyğun addım atdı. Azərbaycan iqtidarı isə təəssüflər olsun ki, cəmiyyətin bu addımlarını qiymətləndirmək gücündə olmadı. Mən bir şəhidin dəfnində iştirak etdim. Orada iqtidar nümayəndələrinin, yerli padşahların, polisin münasibətinə şahid olmuşam və söylədiklərim şəxsi müşahidələrimə əsaslanır".

# "Freedom House"nin illik hesabatı birmənalı qarşılanmadı

FREEDOM HOUSE

**Beynəlxalq hüquq-müdafiə təşkilatı olan "Freedom House" növbəti hesabatını açıqlayıb. Qurumun keçid dövrü ölkələrinə dair açıqladığı və "Nations in Transit" adlanan illik hesabatında Azərbaycan əvvəlkilər kimi yenə də pis göstəricilər olan ölkələr sırasına daxil edilib.**

Reytinqlər 1-7 balla göstərilib. 1 - demokratik inkişafın ən yüksək, 7 - ən aşağı həddini göstərir. Bu reytinq seçki prosesi, vətəndaş cəmiyyətinin durumu, müstəqil media, demokratik idarəçilik, məhkəmənin müstəqilliyi, korrupsiya kateqoriyalarına əsasən hazırlanır. Azərbaycanın balı 6.86-dır. Gürcüstanda demokratiyanın durumuna 4.61, Ermənistanda 5.36, Rusiyada 6.50 bal verilib.

**Hesabatda ötən il Azərbaycanda vətəndaş cəmiyyətinə 2014-cü ilin yayından başlanmış hücum kampaniyasının davam etdiyi vurğulanır.** "Ölkənin ən tanınmış araşdırmaçı jurnalisti Xədicə İsmayıl yeddi il yarım həbs cəzasına məhkum edildi", - deyə qeyd olunur. Ölkəmizlə bağlı hesabatda olan hissələrdə diqqətdən yayınmayan bir nüans da var. Orada göstərilir ki, ötən ay 10-dan çox siyasi fəalın azadlığa buraxılması beynəlxalq ictimaiyyət tərəfindən alqışlanıb, ancaq hökuməti dərin demokratik islahatlar həyata keçirməyə səsləyən çağırışlar da artıb.



**Mehman Əliyev:** "Bunlar iqtidarın əvvəlki mövqelərindən geri çəkilmədiyini göstərir"



**Mirvari Qəhrəmanlı:** "Təşkilatın qərəzindən xəbər verir"

"Freedom House"un əvvəlki illərdə yaydığı hesabatları ilə son hesabatı arasında elə də ciddi fərq yoxdur. Bu isə ölkəmizdə heç də birmənalı qarşılanmayıb. Buna səbəb Azərbaycan hakimiyyətinin son aylarda siyasi məhbuslar, vətəndaş cəmiyyəti və insan hüquqları ilə bağlı atdığı bəzi müsbət addımlardır. Görünən odur ki, qurum bu addımların heç birini nəzərə almayaraq, ölkəmizi Cənubi Qafqazda demokratiyanın durumuna görə ən aşağı pillədə göstərib.

**Hesabatla bağlı fikirlər müxtəlifdir. "Turan" informasiya agentliyinin rəhbəri Mehman Əliyev Cənubi Qafqaz ölkələri arasında demokratiya ilə bağlı hesabatda göstərilən hissələrlə razılaşdığını söylədi:** "15 nəfər siyasinin azadlığa buraxılması doğrudur. Amma ondan sonra biz həbs edilən jurnalistləri gördük, yazıçı Əkrəm Əylisliyə qarşı açılan cinayət işinin şahidi olduq. Qulu Məhərrəmli ilə bağlı məhkəmə prosesi artıq başlayıb. Alışanov bunu özbaşına edə bilməzdi. Hakimiyyət öz rəqiblərinə qarşı güc işlətməkdə davam edir. Bütün bunlar iqtidarın əvvəlki mövqelərindən geri çəkilmədiyini göstərir. Bu isə belə hesabatlarda özünü büruzə verir".

**Hüquq müdafiəçisi Mirvari Qəhrəmanlı Azərbaycanın Rusiya və Ermənistandan daha çox insan hüquqlarının pozulduğu ölkə kimi qeyd olunması ilə razılaşmadığını qeyd etdi:** "Müəyyən qədər Gürcüstanla razıyam. Çünki oradakı insan hüquqlarının vəziyyəti bizdən yaxşıdır. Amma Rusiya və Ermənistanın ölkəmizdən öndə göstərilməsi təşkilatın qərəzindən xəbər verir. Ermənistanın torpaqlarımızı tutması insan hüquqlarının ən böyük pozulması deməkdir. İnsan haqları əsir götürülən və öldürülən şəxslərlə bağlıdır. Bunu isə Ermənistan əclaflıqla edib. Ermənistan insan hüquqlarını pozan bir ölkə kimi ilk sırada verilməli idi. Orada da siyasi məhbuslar məsələsi var. Sadəcə, onların problemləri dünya tərəfindən ört-basdır edilir. Rusiyanın timsalında deyə bilərəm ki, işğalçı dövlət heç zaman Azərbaycandan qabaqda ola bilməz. Çünki ölkəmiz heç bir dövlətin ərazisini işğal etməyib. İnsan haqları daha çox bir dövlətin digər dövlətin ərazisini tutması və vətəndaşını qırması ilə bağlı olan anlayışdır. Ölkəmizdə insan hüquqlarının pozulması bu gün də davam edir. Bunu dana bilmərik. Həbsdə hələ də siyasi məhbuslarımız varsa, demək, ölkəmizdə insan hüquqlarının pozulması faktoru var. Azərbaycan bu sahədə sürətli addım atmasa da, amma nələrsə etməyə qərarlıdır. Belə bir ağır şəraitdə bu kimi təşkilatların hücumlarının qarşısını almaq üçün Azərbaycan siyasətində ciddi dəyişikliklər etməlidir. İlk növbədə, vətəndaş cəmiyyətinə qarşı olan basqılara son qoyulmalıdır. "Freedom House"un hesabatının müəyyən hissələri ilə qismən razıyam. Amma Rusiya və Ermənistanın bizdən öndə olması ilə tamamən razı deyiləm".

❑ Cavanşir ABBASLI

YENİ MÜSAVAT
N 78 (6399) 13 aprel 2016

# "Təşkilatımızın bütün sənədləri hələ də Ağır Cinayətlər İdarəsindədir"

## Qubad İbadoğlu: "QHT-lərlə əlaqədar problemlər aradan qaldırılmasa, Azərbaycanla bağlı qərarlar daha da sərt ola bilər"

**Tanınmış iqtisadçı Qubad İbadoğlu musavat.com-a müsahibə verib. O, bir müddət öncə qayıtdığı ABŞ səfərindən, həmçinin Azərbaycan iqtisadiyyatının vəziyyətindən və milli valyuta olan manatın gözlənilən məzənnəsindən danışıb.**

***- Qubad bəy, ilk olaraq Amerika Birləşmiş Ştatlarına etdiyiniz uzunmüddətli səfər barədə soruşum. ABŞ səfəriniz necə keçdi?***

- Bu səfər həm özümün peşəkar fəaliyyətim üçün əhəmiyyətli idi, həm də bütövlükdə bir insanın inkişafı və Amerika Birləşmiş Ştatları cəmiyyətinin üstünlüklərini görmək, orada yaşamaq üçün yaxşı bir dövrə təsadüf edirdi. Mənim üçün də maraqlı tərəflərdən biri Birləşmiş Ştatların siyasi həyatıdır. Çox maraqlı dövrdə orada oldum. Prezident seçkilərinə hazırlıq dövrü idi və həm Respublikaçılar, həm də Demokratlar Partiyası özlərinin ilkin seçkilərini keçirirdilər və bu seçkilərdə iştirak edən namizədlər arasında debatlar, namizədlərin seçiciləri ilə görüşü, bütövlükdə hər ştat üzrə yarış həqiqətən də Birləşmiş Ştatların siyasi həyatına yeni bir rəng qatmışdı. Bu prosesi izləmək, eyni zamanda bununla bağlı akademik dairələrdə müzakirələr aparmaq üçün bir şans idi. Ona görə mən özüm də maraqlı idim ki, bu məsələlərdə müəyyən faydalı tərəfləri görüm və onun Azərbaycana gələcəkdə transferi istiqamətində, ölkədə siyasi mübarizə mədəniyyətinin formalaşmasında bu təkliflərlə çıxış edim. Bu tərəfdən bir siyasi təcrübə qazandım. İkinci bir tərəfdən baxsaq, Birləşmiş Ştatlarda səfərim iki hissədən ibarət idi. Biri Vaşinqtonda Demokratiya Himayə Fondunun təşəbbüsü ilə, eyni zamanda Konqresin təşkilati dəstəyi ilə həyata keçirilirdi. Orada mən demək olar ki, müxtəlif səviyyələrdə görüşlərə və müzakirələrə cəlb olunmuşdum. Obama administrasiyası, Konqresin üzvləri, dövlətin məsul şəxsləri, Dünya Bankının, Beynəlxalq Valyuta Fondunun Azərbaycanla, regionla əlaqəli ekspertləri, analitikləri ilə görüşlərim oldu. Buradan da xeyli təcrübə qazandım. Biz Azərbaycanın bu gününü deyil, həm də sabahını müzakirə edirdik. Orada önəmli tədbirlərə qatıldım. Həmçinin səfərdən qazancım dünyanın nüfuzlu universitetlərindən olan Duke Universitetində professor vəzifəsində, iqtisadiyyat departamentində işimlə bağlı idi. Ağır dövr idi. Azərbaycanda da hadisələr, proseslər sürətlə baş verirdi. Xüsusilə də mənim ABŞ-da olduğum dövrdə bir vəzifəm də beynəlxalq tədbirlərdə iştirak idi. Müxtəlif tədbirlərdə iştirak üçün oranı səkkiz dəfə tərk etdim. O tədbirlərdən biri daha önəmli idi- Mədən Sənayesində Şəffaflıq Təşəbbüsü ilə bağlı beynəlxalq idarə heyətinin toplantılarına qatıldım. Keçən ilin aprelində toplantıda Azərbaycanla bağlı qərar verildi, ölkənin statusu əlindən alındı. Ondan sonra mənə və işlədiyim təşkilata təzyiqlər daha da şiddətləndi. Keçən ilin mayından bizim ofisdən maliyyə-mühasibat sənədlərini aparıblar. Bizim kompüter avadanlıqlarımızı müsadirə etmişdilər. İndi kompüter avadanlıqlarını qaytarıblar, amma geri qayıdan doqquz kompüterdən heç biri çalışmır. İndi maliyyə-mühasibat sənədlərini geri almaq istəyirik, hələ buna nail ola bilməmişik. Bizdən 156 qovluq və təxminən 70 maliyyə-mühasibat kitabçası, sənədlər götürüblər. Təşkilatın bütün müqavilələri, sənədlər hələ də Baş Prokurorluğun Ağır Cinayətlər İdarəsində qalır. Biz ümid edirik ki, bu sənədlər də geri qayıdacaq. Mən İqtisadi Tədqiqatlar Mərkəzində bir ekspert olaraq fəaliyyətimi davam etdirəcəm. Eyni zamanda burada baş verənlər təbii ki, Birləşmiş Ştatlarda məni də narahat edirdi, qayğılandırırdı. Və mən orada olduğum dövrdə heç də bu baxımdan arxayın deyildim. Yaranan narahatçılıq istənilən halda xoşagəlməz idi. Amma mən gedəndə də müəyyən proseslər başlamışdı, ondan əvvəl də. Mənim Birləşmiş Ştatlara səfərim planlaşdırılmış bir səfər idi, proseslərlə, təşkilata və şəxsən mənə olan təzyiqlərlə əlaqəli deyildi. Hesab edirdim ki, həqiqətən bu dövr bizim həm başladığımız işləri inkişaf etdirmək üçün, həm də şəxsi müstəvidə əlaqələrin qurulması üçün əhəmiyyətli dövr idi. Ona görə də Birləşmiş Ştatlarda fəaliyyətimi və ondan əldə edilən nəticələri uğurlu hesab edirəm.

***- İqtisadi Tədqiqatlar Mərkəzinin hesabı ilə bağlı problem həll olundumu? Bir çox QHT-lərin hesablarındakı borcun silinməsi, hesabların açılması, QHT-lərlə bağlı qaldırılan cinayət işlərinin dayandırılması ilə bağlı xəbərlər var. Sizin təşkilatda vəziyyət necədir?***

- Bu məlumatlar səhih deyil. Müxtəlif mənbələrdən mətbuata sızdırılır. Heç bir QHT-nin vergi borcları silinməyib. Heç bir QHT-yə qarşı da cinayət işi dayandırılmayıb. Mən özüm bu prosesi yaxından izləyirəm. Düzdür, Mədən Sənayesində Şəffaflıq Təşəbbüsünə daxil olan qeyri-hökumət təşkilatlarının bank hesabları açılıb. Amma bank hesablarının açılması o demək deyil ki, azad şəkildə bankda olan vəsaitləri istifadə edə bilərik. Çünki orada olan vəsaitlərin istifadəsi qrantların qeydiyyatı haqqında bildiriş təqdim etmədən mümkün deyil. Bank hesabları açılsa da, oradakı vəsaitlər üzərində sərbəst sərəncam vermək hüququ hələ ki bir çox təşkilatlara nəsib olmayıb. Çünki onlar indi də qrant qeydiyyatları ilə məşğuldur. Bizim kimi təşkilatlar üçün bu, daha çətindir. Çünki biz qrant qeydiyyatına müraciət etmək üçün müqavilə sənədlərini də əlavə etməliyik. Amma bu gün biz bu sənədləri geri ala bilmədiyimizdən, rəsmi qaydada Ədliyyə Nazirliyinə qrantların qeydiyyatı ilə bağlı müraciət də edə bilmirik. Bu baxımdan, çətinliklər qalır. Amma müəyyən dəyişikliklər var. Hesab edirəm ki, bu bir başlanğıcdır, davam etməlidir. Çünki Azərbaycan hakimiyyəti bunu etməsə, xüsusilə də Mədən Sənayesində Şəffaflıq Təşəbbüsündə iştirak edən qeyri-hökumət təşkilatlarına tətbiq olunan məhdudiyyətlər aradan qaldırılmasa, iyun ayının 1-2-də Osloda bizim növbəti idarə heyətinin toplantısı olacaq ki, həmin toplantıda Azərbaycanla bağlı müzakirələr gündəlikdədir. Hesab edirəm ki, bu problemlər aradan qaldırılmasa, Azərbaycanla bağlı qərarlar daha da sərt ola bilər. Mən düşünürəm ki, bu, yalnız Mədən Sənayesində Şəffaflıq Təşəbbüsünü əhatə etməli deyil. Çünki bütövlükdə, böyük mənada vətəndaş cəmiyyətinin bütün tərəflərini, bütün iştirakçılarını əhatə etməlidir. Çünki vətəndaş cəmiyyəti yalnız Mədən Sənayesində Şəffaflıq Təşəbbüsündən ibarət deyil. İkincisi, bu, qısamüddətli, birdəfəlik tədbir kimi həyata keçirilməli deyil. Uzunmüddətli dəyişikliklər üçün əsaslar yaradılmasına xidmət etməlidir. Uzunmüddətli dəyişikliklər üçün əsaslar yaranması üçün də mövcud qanunvericilikdə ciddi dəyişikliklərə və əlavələrə ehtiyac var. Çünki son zamanlar qəbul edilmiş bir çox qaydalar Azərbaycanda nəinki yerli qeyri-hökumət təşkilatlarının, həm də xarici donorların fəaliyyətini məhdudlaşdırıb. Onların üzərində dövlət orqanlarının müdaxiləsi imkanlarını artırıb. Ona görə də bu barədə ciddi dəyişikliklər gözləyirəm. Yenə də ümidlərimi itirməmişəm. Çünki bizi qarşıda beynəlxalq səviyyədə iki çətin müzakirə gözləyir. Biri mayın 3-4-də Cənubi Afrika Respublikasında açıq hökumət tərəfdaşlığı ilə bağlı idarə heyətinin toplantısında Azərbaycanla bağlı müzakirədir. İkincisi isə iyunun 1-2-də Mədən Sənayesində Şəffaflıq Təşəbbüsünün beynəlxalq idarə heyətinin toplantısında Azərbaycanın öhdəliklərini necə icra etməsinin qiymətləndirilməsi ilə bağlıdır. Hər ikisi Azərbaycan üçün önəmlidir. Hər iki təşəbbüs Azərbaycanın inkişafında önəmli rol oynaya bilər. Düşünürəm ki, açıq hökumət, hesabatlılıq və şəffaflıq bu gün Azərbaycanda gözlənilən islahatların əsas prinsiplərindən biridir. Azərbaycan hökuməti ciddi islahatlar aparmaq niyyətindədirsə, bu, yalnız daxildə sərəncamlarla ifadə olunmalı deyil. Həm də xaricdə beynəlxalq təşkilatlarda götürülən öhdəliklərin vaxtı-vaxtında və tam şəkildə yerinə yetirilməsinə xidmət etməlidir. O baxımdan hər iki tədbirin Azərbaycanla bağlı qərarı iqtisadi islahatların səmərəliliyində əhəmiyyətli rol oynaya biləcək. Azərbaycanın xarici borclara çıxış imkanlarının təmin edilməsində də hər iki təşkilatın qərarının mühüm əhəmiyyəti ola bilər.

> **"Mərkəzi Bank və Maliyyə Nazirliyinin apardığı siyasətlər iqtisadiyyatın tənəzzülünü sürətləndirir"**



***- Hazırda ölkədə iqtisadi vəziyyət necədir?***

- Hazırda hesab edirəm ki, Azərbaycan iqtisadiyyatı tənəzzülə girib və bu tənəzzül dövründə baş verənlər həm biznes, həm istehlakçı cəmiyyətində xüsusi narahatçılıq doğurur. Mənim müşahidələrimə görə, tənəzzülün baş verməsinin çox müxtəlif səbəbləri var. Onların bəziləri obyektiv səbəblərdir. Bundan çox danışırıq və buna misal olaraq dünya bazarında neftin qiymətinin ucuzlaşmasını göstəririk. Amma bunun subyektiv səbəbləri də var. Bu gün xüsusilə də Mərkəzi Bankla Maliyyə Nazirliyinin apardığı siyasətlər Azərbaycanda iqtisadi tənəzzülün sürətlənməsinə xidmət edir. Çünki hər iki təşkilat heç bir koordinasiya olmadan özlərinin maraqlarına xidmət edən siyasət yerinə yetirirlər. Əvvəla, Mərkəzi Bank dövriyyədəki manat kütləsini məhdudlaşdırmaqla iqtisadi aktivliyi xeyli aşağı salır və bunun əsas məqsədlərindən biri ondan ibarətdir ki, monetar üsullarla qiymət artımının qarşısını alsın. Hesab edirəm ki, bu, bütövlükdə Azərbaycanda həm kredit qoyuluşlarının aşağı düşməsi, investisiya qoyuluşlarının azalması, işgüzar aktivliyin səngiməsinə və eyni zamanda alıcılıq qabiliyyətinin məhdudlaşdırılmasına xidmət edir. Bu gün həm də Mərkəzi Bankın apardığı məzənnə siyasəti də heç bir iqtisadi məntiqlə izah oluna bilməz. Onun əsasında duran inzibati vasitələr də düşünülmüş və məqsədəmüvafiq deyil. Çünki bu gün Azərbaycan manatının məzənnəsi Azərbaycan iqtisadiyyatının durumundan asılıdır. Mərkəzi Bank bir tərəfdən manatın məzənnəsini möhkəmləndirmək siyasətini yeridir, digər tərəfdən isə dövriyyədəki manat kütləsini məhdudlaşdırmaqla həm də ümumdaxili məhsulun aşağı salınmasını sürətləndirir. Maliyyə Nazirliyi də öz fəaliyyətini önə çəkərək özünün daxili siyasəti ilə bütövlükdə dövlət büdcəsi vəsaitlərinin məhdud şəkildə xərcləməsi əsasında ölkədə ümumdaxili məhsulun aşağı düşməsini şərtləndirir. Birinci rübün nəticələrinə görə, ölkədə dövlət büdcəsində profisit yaranıb. Eyni zamanda ölkədə kifayət qədər həm cari, həm də kapital tələbi olduğu bir halda, xərcləmələr cəmisi 73 faiz yerinə yetirilib. Yəni bununla da Maliyyə Nazirliyi öz siyasəti ilə öz maraqlarını qoruyur və Azərbaycanda büdcə tarazlığını təmin edib profisit yaratmaqla bir tərəfdən Maliyyə Nazirliyinin daha yaxşı işlədiyini göstərməyə çalışır. Digər tərəfdən də unudurlar ki, bu siyasətləri ilə həm də Azərbaycanda ümumdaxili məhsulun aşağı düşməsini sürətləndirirlər. Çünki ümumdaxili məhsulun əsas komponentlərindən biri dövlət xərcləmələridir. Dövlət xərcləmələrinin də məhdudlaşdırılması son nəticədə ümumdaxili məhsulun özünün də tənəzzülünü daha da artırır. Bu, onu göstərir ki, Azərbaycan iqtisadiyyatında vahid mərkəzdən koordinasiya olunmuş və eyni zamanda eyni proqram əsasında idarəetmə yoxdur. Çünki ölkədə demək olar ki, hökumət fəaliyyətsizdir. Ölkənin hökumətinə rəhbərlik edən Nazirlər Kabinetinin sədri və baş nazir bu müzakirələrdən kənardadır. Hesab edirəm ki, bu gün nə qədər ki, Azərbaycanda kompleks fundamental proqramlarla iqtisadiyyatdakı prosesləri vahid mərkəzdən tənzimləməyəcəksə, bir o qədər də biz mövcud tənəzzülün qarşısını ala bilməyəcəyik. Bu da ölkədə işsizliyin səviyyəsinin getdikcə artmasına gətirib çıxaracaq. Eyni zamanda işsizliyin səviyyəsinin artması kifayət qədər sosial fəsadlar yaradacaq. Bunun həm dolanışıqla bağlı məsələlərə, həm də kriminal münasibətlərə qədər çox neqativ təsirləri olacaq. Ona görə də bu gün Azərbaycan iqtisadiyyatı üçün çox vacib məsələlərdən biri ölkədə işgüzar fəallığı artırmaq və əhalinin alıcılıq qabiliyyətini əvvəlki səviyyədə bərpa etməkdən ibarətdir. Əks təqdirdə, yeni dövr həm də biznüs strukturlarının fəaliyyətinin məhdudlaşdırılmasına və bəzilərinin isə fəaliyyətini dayandırmasına gətirib çıxaracaq. Bu siyasət, həm Mərkəzi Bankın apardığı buxovlayıcı monetar siyasət, həm də Maliyyət Nazirliyinin apardığı məhdudlaşdırıcı fiskal siyasət hər ikisi Azərbaycan iqtisadiyyatının ümumiləşdirilmiş göstəricisi olan ümumi daxili məhsulun və milli gəlirin azalmasını şərtləndirir. Ayrı-ayrılıqda hər ikisi ola bilər ki, öz göstəriciləri ilə prezident qarşısında daha yaxşı təqdim oluna bilər.

***- Hər kəsi bu gün milli valyutanın gələcəyi düşündürür. Manat sərbəst buraxılsa, hansı həddə kimi bahalaşa bilər?***

- Alıcılıq qabiliyyətinin prioritetləri əsasında hesablamalar var. Bu hesablamaları biz əvvəllər aparmışdıq. Onda alıcılıq qabiliyyəti daha da yüksək idi. Bunun əsasında manatın gerçək məzənnəsinin hazırkı məzənnə ilə müqayisədə ən azı iki dəfə aşağı olduğu nəticəsi əldə edilmişdi. İndiki halda yeni hesablamalara ehtiyac var. Ola bilsin, yeni rəqəm bu məzənnənin daha da aşağı olmasını şərtləndirsin.

❑ **Röya RƏFİYEVA**

YENİ MÜSAVAT
N 78 (6399) 13 aprel 2016



# Arxipelaq Qulaq

Zamin HACI
zaminhaci@gmail.com

**Prezident yanında Mənzil İnşaatı Dövlət Agentliyinin yaradılması müsbət hadisədir. Ən çox da qısa adının yazılışına görə. Necə romantik səslənir: MİDA. Adam 50 il kirayədə qala bilər, təki mənzil gözlədiyi yerin adı belənçik olsun.**

Başqa yöndən, bu idarənin adının məhz "prezident yanında" önlüyü ilə (artikli ilə yazım, qoy desinlər kəllədir) qoyulması, məncə, artıqdır. Onsuz konstitusiyamıza əsasən biz qanuni şəkildə avtoritar quruluşlu dövlətik. Yanılmıramsa, təkcə ana qanunda prezidentə azı 32 böyük səlahiyyət verilir. Qanunverici, məhkəmə orqanları oyuncaq kimi bir şeylərdir. O üzdən, hər dəfə nəsə dövlət qurumu yaradılanda onun adında xüsusi olaraq prezidenti vurğulamaq yersizdir. Bəlkə camaata daha xüsusi təsir eləsin, daha effektli olsun deyə belə edirlər - deyə bilmərəm. Yeri gəlmişkən, bizdə belə təşviqat üsulu şəhid ailələrinə verilən təqaüddə görünür. Pul dövlət büdcəsindən ayrılır, ancaq təqaüdün adı "prezident təqaüdü" qoyulub. Elə bil bunu dövlət başçısı şəxsən cibindən verir.

Sözgəlişi, bu dəqiqə hamı təkcə öz funksiyası ilə kifayətlənmir, daha geniş sferaları əhatə etməyə, xarüqələr yaratmağa çalışır. Bugünlərdə jurnalistlərin prezidentin verdiyi evin həyətində palatka qurub şəhidlərə ehsan verməsi də bu qəbildəndir. Məclisi isə baş axundumuz Əflatun müəllim şəxsən aparmışdır. Dünyada analoqu olmayan işdir ki, jurnalist qəzet qayırmaq yerinə ehsan verir. Yəqin ki, yaxın gələcəkdə KİVDF xətti ilə mürdəşir salonları, qəbirqazma sexləri açmaq üzərində də geniş iş gedəcəkdir. Mərmər başdaşı işi də perspektivlidir.

Qabaqkı, sovetdənqalma adlara baxanda MİDA çox yaxşıdır. Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin adına diqqət edin. Qısaltması əcaib alınırdı, hətta adam yazmağa utanır. Yaxud, Tələbə Qəbulu Dövlət Komitəsi də eyni gündə ləğv olundu, bunun yerinə Dövlət İmtahan Mərkəzi düzəldildi. Öz aramızdır, TQDK hara, DİM hara... DİM çox diləyatımlı addır: "Məktəbi bitirDİM", "Universitetə girDİM" - sanki nəyinsə yekununu bildirir. TQDK adı xüsusilə atəşkəs dövrünə uyğun gəlmirdi, bunu səsləndirəndə elə bil avtomatdan atəş açırdın. Gərək Medvedyev hər imtahanda Bakıya gələydi.

Ümumiyyətlə, son illərin, necə deyərlər, trendinə baxanda idarə adlarımızda bir yüksəliş hiss olunmaqdadır. İlk olaraq biz «ASAN xidmət» idarəsinin ismi-şərifini qeyd etməyə borcluyuq. Əsas adlardır, işin adını düzgün qoysan, dalı da yaxşı gedir. Zarafat məsələ deyil, onomastika - adlar haqda ciddi yanaşma tələb edir. Misal üçün, SSRİ vaxtında bizdə Sovet İttifaqı Kommunist Partiyasının qısa adını Sov.İKP yazırdılar. Elə bilirsiniz bunu kefdən eləyirdilər? Ay hay... Oruel və Bulqakov SSRİ-nin kəşf elədiyi qısaltma adlara sözün əsl mənasında həsəd apara bilərdilər. OBXSS, VLKSM, KGB, Qosstrax, Sberbank, raykom, partkom... Bunlar hamısı tarixdə öz izini qoymuşdur. Yadıma gəlir, bizim sovet uşaqlığımızın öz abrreviatura folkloru da vardı. VLKSM - Vallah Leninin Kəlləsi Sümükdən Möhkəm-dir idi. "Kommunist" qəzetinin adını belə oxuyurduq: Köpəy Oğlu Mürsəl Müəllim Uşaqları Niyə İncidirsən Səni Tutarlar. Bunu kim düzüb-qoşmuşdu ilk dəfə, onunla şəxsən tanış olmaq, nə yeyib-içdiyini öyrənmək istəyərdim. Gec də olsa.

Adını qoyandan sonra bu MİDA, DİM və ASAN-lar çox yaxşı işlər görəcəkdir. Bax, neçə aydır Ədliyyə Nazirliyinin Penisentiar Xidməti rəissiz qalıbdır. (Mədət müəllim MTN-in yerində düzəldilən DTX-yə şef gedib, hərçənd bunun adı MİDA qədər romantik deyil). Səbəb sadədir: idarənin adı köhnəlmişdir, arxaikdir. Yəqin ƏNPX-nin yerində Prezident yanında Arxipelaq QULAQ idarəsi yaradılandan sonra həm rəis tapılacaq, həm işlər qaydasına düşəcək, günaşırı dustaqlar ölməyəcəkdir. Həftədə biri ölsə bəsdir.

# Sülh prosesində geriyə dönüş

**Qarabağ münaqişəsi zonasında 4 günlük müharibədən sonra sülh danışıqlarının hansı məcrada inkişaf edəcəyi indi ən çox müzakirə mövzusudur. Əsas sual da budur ki, Güney Qafqazın üzücü konfliktinin həllində, nəhayət, çoxdan gözlənilən sıçrayış olacaqmı?**

Prezidentlərin Kazan görüşü, 2011.



# Qarabağ nizamlanması Medvedyev variantına qayıdır

## Putinin danışmanı yaxın həftələrdə yeni prosesin başlayacağının anonsunu verdi; **Sergey Markov:** "Müvəqqəti anlaşma çox yaxındadır"; Dağlıq Qarabağın statusu uzaq tarixə saxlanılır?..

Hələlik görünən budur ki, aprelin 5-dən etibarən yaranan yeni situasiyada ən çox Rusiya fəaldır. Bu fəallıqla bağlı da ziddiyyətli yanaşmalar mövcuddur. Bəzi təhlilçilərə görə, rəsmi Moskva Azərbaycan və Ermənistana nəzarəti itirməmək şərtilə həqiqətən nəsə eləmək istəyir. Başqa qisim analitiklər isə hesab edir ki, Kremlin, sadəcə, vaxt udmaq niyyəti güdür və danışıqlar prosesində ciddiyə heç nə dəyişməyəcək.

Rusiyalı tanınmış politoloq, prezident Vladimir Putinin etibarlı şəxslərindən *(danışmanlarından)* sayılan Sergey Markov birinci qisim analitiklərdəndir. Onun sözlərinə görə, son hərbi eskalasiyanın ardınca, yaxın həftələrdə Qarabağa dair real danışıqlar başlayacaq. Bu barədə o, «Report» agentliyinə müsahibəsində deyib.

"ATƏT-in Minsk Qrupu Dmitri Medvedyevin prezidentliyi dövründə əldə olunmuş "Kazan formulu" üzrə müvəqqəti tarixi kompromisə çıxmaq üçün Ermənistana və yaxud Azərbaycana, daha çox isə Ermənistana təzyiq edəcək. O zaman Bakı və İrəvandan bu varianta yekun razılıq almaq mümkün olmamışdı" - ekspert bildirib.

**Dağlıq Qarabağın statusunun necə olacağına gəlincə, politoloq deyib:** "Bu məsələ kifayət qədər uzaq tarixə saxlanacaq. Bundan əlavə, sənədlərdə bu və ya başqa şəkildə vurğulanır ki, Dağlıq Qarabağ beynəlxalq birlik tərəfindən Azərbaycan ərazisi kimi tanınır. Kazan formulu sözün həqiqi mınasında Minsk Qrupu tərəfindən zorla irəli aparılacaq. Özü də təzyiqlərin böyük hissəsi Ermənistan rəhbərliyinə olacaq. Ona görə də həm Ermənistan rəhbərliyi, həm də Azərbaycan rəhbərliyi vətənpərvər ritorika ilə ruhlanmış vətəndaşlarına sübut eləməli olacaqlar ki, hər iki tərəfdən güzəşt olan bu kompromis, hər halda, onun ölkəsinə sərfəlidir. Daha çox da bunu Ermənistan rəhbərliyi öz vətəndaşlarına sübut eləməlidir".

**Rusiya prezidentinin sözçüsü situasiyanın müvəqqəti anlaşmanın əldə olunmasına çox yaxın olduğunu söyləyib:** "Bu - bir yandan yüz minlərlə azərbaycanlının öz doğma yurduna qayıtmasına, digər yandan, Ermənistan iqtisadiyyatının sərbəst inkişafına imkan yaradardı".

**Politoloqa görə, Rusiya konfliktdə ən ölçülü-biçili mövqe tutan yeganə ölkədir:** "Yadda saxlamaq lazımdır ki, hər üç həmsədr dövlətdə - Rusiya, ABŞ və Fransada erməni lobbisi böyük nüfuza malikdir. Ancaq Rusiya tək ölkədir ki, burada həm güclü erməni, həm də güclü Azərbaycan diasporu var. O üzdən də Rusiya məsələdə ABŞ və Fransadan daha çox balanslı mövqe tutur".

**Ekspert İrəvanın Moskvaya Azərbaycana silah satmamaqla bağlı çağırışlarını əhəmiyyətsiz sayıb. Onun qənaətincə, əgər Rusiya Azərbaycana silah satmasa, Bakı, sadəcə, onu başqa tədarükçülərdən alacaq.** "Ötən iki ildə Kreml Ermənistana 200 milyon dollar dəyərində silah bağışlayıb, Azərbaycana isə 4 milyard dollarlıq silah satıb. Bu, regionda hərbi qruplaşmanı gücləndirir və müharibəni mümkün edir, amma başqa yandan, hər iki tərəfə silah verilməsi Moskvanın Bakı və İrəvanla strateji tərəfdaşlıq əlaqələrini möhkəmlədir" - əlavə edib politoloq.

***

Yada salaq ki, 2011-ci il iyunun 24-də ovaxtkı prezident Dmitri Medvedyevin təşəbbüsü ilə Kazanda Rusiya, Azərbaycan və Ermənistan liderləri arasında növbəti üçtərəfli təmas olmuşdu. 3 saat çəkən danışıqlar əsas prinsiplərlə bağlı anlaşmanın əldə olunmaması ilə yekunlaşa da, tərəflər bu hədəfə doğru yolda tərəqqi olduğunu söyləmişdilər. Yayılan birgə bəyanatda deyilirdi ki, "əsas prinsiplərin qəbulu üçün şərait yaradan bir sıra önəmli məsələlərdə qarşılıqlı anlaşma əldə edilib".

Kazan formulunun mahiyyətində faktiki, Madrid prinsipləri dayanır, Dağlıq Qarabağın statusunun qeyri-müəyyən vaxta saxlanması, bölgəyə *(təmas xətti boyu)* sülhməramlıların yerləşdirilməsi nəzərdə tutulur. Bu da Azərbaycan üçün əslində Qarabağın yekun taleyi ilə bağlı narahatlıq yaradır. Xüsusən də sülhməramlı qüvvələrdən sonra Bakı bölgəni həmişəlik itirə bilər.

***

"İndiki situasiyada Qarabağda sülhməramlı qüvvələr yerləşdirilə bilməz. Ona görə ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa etmək üçün mübarizə aparır və buna çox yaxındır". **Bunu politoloq Qabil Hüseynli** deyib (axar.az). Sabiq dövlət müşaviri əmindir ki, Rusiya sülhməramlılar adı altında Dağlıq Qarabağda öz hərbi bazasını yaratmaq istəyir.

"Dağlıq Qarabağ Azərbaycanın ərazisidir və bölgənin böyük hissəsinə silahlı yolla nəzarət etmək imkanına malikik. Əsas proses hazırda erməni qoşunlarının ərazilərimizdən çıxarılmasıdır. Bu olmadan və ərazi bütövlüyümüz təmin edilmədən ermənilərin bölgəyə sülhməramlılar gətirməsi və bu qüvvələrin də ruslardan ibarət olması haqqında irəli sürülən ideyalar hazırda təxribatın ən yüksək formasıdır. Sülhməramlıların bölgəyə yerləşdirilməsi əvvəllər böyük sülh sazişi bağlandıqdan sonra nəzərdə tutulurdu. İndi Azərbaycan, ümumiyyətlə, bunun əleyhinədir. Rusiya rəsmiləri əvvəlcə gündəmdə 7 rayonun, sonra isə 5 rayonun olduğunu açıqladılar. Azərbaycan prezidenti ortaya çox qəti mövqe qoyub və bu dəqiqə Qarabağ bir nömrəli məsələdir: Azərbaycanın ərazi bütövlüyü təmin ediləcək və bunun daxilində də Dağlıq Qarabağın statusu müəyyən ediləcək. Ölkə rəhbəri çox maraqlı bir nüansa da diqqət çəkdi. O bildirdi ki, hər hansı dövlətin danışıqlar-sülhyaratma prosesini inhisar altına alması qeyri-mümkündür. Bu, açıq bir mesaj idi".

***

Bu, həm də ona işarədir ki, Bakı status məsələsini uzaq tarixə saxlamağı nəzərdə tutan "Kazan formulu"nu da artıq məqbul saymır. Çünki münaqişə ətrafında situasiya indi başqa, 2011-ci ildən xeyli fərqlidir.

❑ **Siyasət şöbəsi**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



YENİ MÜSAVAT
N 78 (6399) 13 aprel 2016



# Rəsmi Bakıdan "Lavrov təklifləri" ilə bağlı açıqlama

## Azərbaycan XİN-in sözçüsü **Hikmət Hacıyev:** "Birinci bənddə qeyd olunur ki..."

**Qarabağ cəbhəsində baş verən son ağır toqquşmaların ardınca Cənubi Qafqazdakı bu münaqişənin dondurulmuş saxlanılmasının böyük təhlükə olduğunu artıq əksəriyyət etiraf etməkdədir. Rəsmi Bakı illər boyu "status-kvo"nun saxlanmasının riskli olduğunu bəyan etsə də, aparıcı güclər məsələnin ciddiliyini bu dərəcədə ağıllarına gətirmirdilər. Lakin 2-5 aprel döyüşləri göstərdi ki, Rusiya baş naziri Dmitri Medvedyevin dediklərinin əksinə olaraq, münaqişənin dondurulmuş saxlanılması çıxış yolu deyil, əksinə, növbəti faciələrə aparan yoldur.**

Əməliyyatlardan sonra dünyanın əksər kəsiminin qənaəti budur ki, Azərbaycan ərazilərinin işğaldan azad edilməsi yeganə həll yolu ola bilər. Aprel döyüşlərindən sonra hərbi və diplomatik sahədə böyük üstünlük əldə etmiş Azərbaycanın mövqeyi isə indi daha uca səslə müdafiə olunmaqdadır.

Bu arada İstanbulda öz işinə başlayan İslam Əməkdaşlıq Təşkilatı (İƏT)Xarici İşlər Nazirləri Şurasının 13-cü zirvə toplantısına hazırlıq iclasında da Qarabağ məsələsi müzakirə mövzusu olub. Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu ölkəsinin prinsipial mövqeyini bir daha bəyan edərək deyib ki, Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüququn norma və prinsipləri əsasında, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır. Ermənistanın son təxribatlarını pisləyən XİN başçısı əlavə edib ki, işğal davam etdikcə toqquşmalar da davam edəcək. Nazir deyib ki, İslam ölkələrinin bu məsələdə həmrəyliyi münaqişənin ədalətli həllinə töhfə verə bilər. M.Çavuşoğlu əlavə edib ki, İƏT-in İstanbul sammitinin dünyadakı digər münaqişələrlə yanaşı, Dağlıq Qarabağ problemi ilə bağlı daha bir qərar qəbul etməsinə ehtiyac var.

**Azərbaycan xarici işlər naziri Elmar Məmmədyarov isə öz növbəsində baş verənlərlə bağlı iştirakçıları məlumatlandırıb.** "2 aprel 2016-cı ildə Ermənistan atəşkəsi kobud surətdə pozaraq Azərbaycan ordusunun mövqelərini və təmas xətti boyunca mülki əhalinin sıx məskunlaşdığı yaşayış məntəqələrini atəşə məruz qoymaqla destruktiv siyasətini bir daha ortaya qoymuş oldu. Bu təxribat əməlinə Azərbaycan ordusu tərəfindən əks-həmlə ilə adekvat cavab verilib və erməni silahlı qüvvələrinin hücumu dəf edilib"-E.Məmmədyarov deyib. E. Məmmədyarov bildirib ki, Ermənistan atəşkəs rejimini pozmaqda davam edir və diqqəti sülh prosesinə lazım olan əsas məsələlərdən yayındırmaqla, dünyaya öz əsas niyyətini nümayiş etdirir: "Fürsətdən istifadə edib, İƏT baş katibinə və üzv dövlətlərə Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə verdikləri dəstəyə, Ermənistanın təcavüzünü və Azərbaycan torpaqlarının işğal edilməsini qınadığına görə təşəkkürümü çatdırmaq istəyirəm. Ermənistanın ölkəmizə qarşı təcavüzünə dair təmas qrupunun yaradılması barədə bu konfransın qərarını təqdir etmək istərdim".

Göründüyü kimi, İslam dünyası növbəti dəfə Azərbaycana dəstək verir. Ancaq ölkəmizi passiv də olsa, dəstəkləyən dövlətlərin sayı faktiki olaraq təklənmiş, hətta hərbi-strateji müttəfiqi Rusiyanın da münasibətindən pərt vəziyyətə düşmüş Ermənistan hakimiyyətini çətin vəziyyətə salıb. Erməni hakimiyyəti bir tərəfdən ölkədə üsyanın baş verməməsi üçün müxalifət liderinin - Levon Ter-Petrosyanın ayağına gedir, digər tərəfdən də erməni kilsəsinin dəstəyini qazanmaq üçün cəhdlər göstərir. Paralel olaraq Dağlıq Qarabağda və ətraf bölgələrdə yaşayan, qanunsuz yerləşdirilən mülki əhalinin də evlərini tərk etməməsi üçün cəhdlər göstərilir. Elə bugünlərdə xəbər yayılıb ki, Ermənistanın xüsusi təyinatlı polis dəstəsi Qarabağa ezam olunub. Virtualaz.org yazıb ki, BMT Dağlıq Qarabağda münaqişənin gərginləşməsi nəticəsində yüzlərlə insanın, əsasən də qadınlar, uşaqlar və qocaların evlərini tərk etmək məcburiyyətində qaldıqları barədə məlumat yayıb. Məlumatda o da vurğulanırdı ki, "yerli hakimiyyət" BMT təmsilçilərinin əhali ilə təmasa girməsinə ciddi maneçilik törədib. Qeyd edək ki, BMT baş katibinin rəsmi nümayəndəsi Stefan Düjarrik Cenevrədə yerləşən Ali Komissarın Qaçqınlarla iş üzrə İdarəsinin (AKQİ) məlumatlarına istinadən bildirib ki, bu yaxınlarda Qarabağda aparılan hərbi əməliyyatlar nəticəsində yüzlərlə insan, əsasən qadınlar, uşaqlar və qocalar evlərini tərk etmək məcburiyyətində qalıblar. Köçkünlərin əsas hissəsi regionun şimal-şərq hissəsindəndir.

Ermənistan hakimiyyəti Dağlıq Qarabağın statusu haqqında referendum keçirilən günədək süni şəkildə sayını artırdığı erməni əhalini bölgədə saxlamağa çalışır. Ancaq mülki əhali anlayır ki, bu şərtlər altında işğal zonasında yaşamaq mümkün olmayacaq.

Erməni mediası bugünlərdə Ermənistan və "DQR"in uduzmasından yazır. İrəvanda çıxan "Lragir" qəzeti və "Noyan Tapan" agentliyi Dağlıq Qarabağ separatçılarının lideri Bako Saakyanın Xankəndində keçirdiyi mətbuat konfransında təşviş içində qalan, nədənsə qorxmuş, hətta mağmın təsir bağışladığını narahatlıqla vurğulayıb. (axar.az) **"Bako Saakyan hələ də dərk etmir ki, belə primitiv bəyanatları ilə İrəvan restoranlarında "rabis" (ara mahnıları-red.) oxuyan, sonra da televiziya ekranlarına hərbi paltarda çıxıb "Vətəni qoruyacağıq" deyən müğənnilər təki bambılı, yüngül adam təsiri bağışlayır"**-agentlik yazıb.

****

**Bu arada İrəvanin cidd-cəhdlərinə, Təl-Əvivə ünvanlandığı etiraz notasına baxmayaraq, İsrail Azərbaycana silah satışını davam etdirəcəyini bəyan etməklə işğalçı ölkəni rəzil vəziyyətinə salıb.** "İsrailin Azərbaycanla məxsusi münasibətləri var və bunlar ilk növbədə həm İsrailə, həm də Azərbaycana tuşlanmış təhlükələrlə əlaqədardır". Bunu virtualaz.org-a müsahibəsində **İsrailin "Nativ" xüsusi xidmətinin keçmiş rəhbəri Yakov Kedmi** deyib. Onun sözlərinə görə, İsrailin Azərbaycana satdığı silah növləri Azərbaycanın regional təhlükələrdən müdafiəsi məqsədini güdür. "Əgər İsrail bu növ silahları Azərbaycana satmasa, Azərbaycan onları Avropanın, Asiyanın və Amerikanın digər ölkələrindən alacaq. Azərbaycanla Ermənistan arasındakı münaqişə problemi bu və ya digər ölkənin silahlarından qaynaqlanmır. Düşünürəm ki, İsrail Azərbaycana, əvvəllər olduğu kimi, silah satmaqda davam edəcək" deyib.

**Moskva da İrəvanın arzusunu gözündə qoyub. Rusiya baş nazirinin müavini Dmitri Roqozin bəyan edib ki, silah satışı dayandırılmayacaq:** "Biz Azərbaycan və Ermənistana silahı maraqların balansına əməl etməklə satırıq. Əgər Rusiya bundan əl çəksə, onun yerini ABŞ və başqa ölkələr tutacaq". Çarəsiz qalan Ermənistan əhalisi Rusiya rəhbərliyinə Azərbaycana silah satışının dayandırılması ilə bağlı imzatoplama kampaniyası keçirir. Ermənistanın baş naziri Ovik Abramyanın 12-13 aprel tarixli Moskva səfərində çox güman ki, silah satışı da müzakirə mövzusu olacaq.

****

**Ermənistanın keçmiş rəhbərliyi təcrübədən çıxış edərək hazırkı hakimiyyəti qeyr-konstruktiv mövqedən əl çəkməyə çağırmaqdadır. Ermənistanın birinci prezidenti Levon Ter-Petrosyan deyib ki, Azərbaycan Qarabağ münaqişəsinin tənzimlənməsi üzrə qarşıdan gələn danışıqlarda mövqelərini gücləndirməyə çalışacaq. Ter-Petrosyan əmin olduğunu bildirib ki, qarşıdan gələn danışıqlar prosesində Ermənistan sərt, lakin konstruktiv mövqedən çıxış etməlidir.** "Dağlıq Qarabağ münaqişəsində danışıqları dalana dirəmək Ermənistanın maraqlarına uyğun deyil. Mütləq danışıqlar masasına oturmaq və məsələni yalnız diplomatik yolla həll etmək lazımdır". Bunu isə Ermənistanın sabiq xarici işlər naziri Vardan Oskanyan deyib. Eks-nazir bildirib ki, Qarabağ münaqişəsi yeni mərhələyə keçib. Oskanyan etiraf edib ki, hazırda zaman Ermənistanın əleyhinə işləyir: "Biz indi hər şeyi qısa zamanda etməliyik. Müharibənin qarşısını almaq və böyük itkilərdən qaçmaq lazımdır. 1994-cü ildə əldə olunan atəşkəs rejimi danışıqların aparılmasına imkan yaradırdı. Ancaq iki ölkə arasında hərbi-siyasi və iqtisadi balansın həddən artıq pozulması Azərbaycana üstünlüklər verib. Qarşı tərəf böyük xərclər hesabına öz hərbi üstünlüyünə inanmağa başladı".

**V.Oskanyan xəbərdar edib ki, Azərbaycanın güclü orduya arxalanaraq hərbi əməliyyatları həyata keçirməsi Ermənistan üçün böyük itkilərə gətirib çıxara bilər:** "Diplomatik səviyyədə danışıqları dalandan çıxarmaq lazımdır. İndiki vəziyyət bizim maraqlarımıza əsaslanmır".

****

Bəs hazırda hansı proses gedir, Moskvanın moderatorluğu ilə gizli məsləhətləşmələr, yaxud danışıqlar, hansısa sənədin müzakirəsi aparılırmı?

**XİN-in mətbuat katibi Hikmət Hacıyev "Yeni Müsavat"a bildirdi ki, hazırda hər hansı danışıq prosesi getmir:** "Hazırda hər hansı danışıqların getdiyini demək çətindir. ATƏT-in Minsk Qrupunun həmsədrləri Azərbaycan və Ermənistanda oldular. Eyni zamanda son illərdə ilk belə hadisəydi ki, Minsk Qrupu tam tərkibdə Vyanada toplaşdı. Hansı ki, Azərbaycan dəfələrlə belə bir təşəbbüslə çıxış edirdi. Bir daha Azərbaycanın dedikləri öz təsdiqini tapdı ki, Ermənistanın işğalçı qoşunları işğal olunmuş torpaqları azad etməsə, vəziyyət hər an gərginləşə bilər. Biz Ermənistanın 2 apreldən başlayan təxribat əməlləri zamanı da növbəti dəfə bunun şahidi olduq". **H.Hacıyev Moskvada Məmmədyarov-Nalbəndyan görüşünün olduğunu təkzib etdi:** "Görüş olmayıb, diplomatik protokol xarakterli və diplomatik etikadan çıxış edərək belə bir salamlaşma olub. Bütün tədbir iştirakçıları bir-biri ilə salamlaşıblar".

**Rusiya XİN başçısı S.Lavrovun danışıqların bütün komponentərinin hazır olması barədə açıqlamasını şərh edən H.Hacıyev bunları bildirdi:** "Əslində hər şey aydındır. Münaqişənin həlli ilə bağlı ümumi baxış və razılıq var. Bu da yenilənmiş Madrid prinsipləridir. Razılaşdırılmış bu təkliflərin mahiyyəti odur ki, münaqişə mərhələli şəkildə həll edilir. Birinci bəndində qeyd olunur ki, Azərbaycanın Dağlıq Qarabağ ətrafındakı işğal olunmuş rayonların mərhələli şəkildə azad edilməsi ilə bağlı bir proses həyata keçirilməlidir. Təbii ki, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi heç bir halda müzakirə mövzusu deyil. Sadəcə, Azərbaycan konstruktiv mövqedən çıxış edərək, münaqişənin mürəkkəbliyini nəzərə alaraq mərhələli həll formasını yeganə mümkün həll yolu kimi görür. Yenilənmiş Madrid prinsipləri də bu prosesdə yol xəritəsidir". **Həll prosesinin dalana dirənməsinin səbəblərinə gəldikdə, XİN rəsmisi dedi ki, Ermənistan cəzasızlıq mühitindən istifadə edərək konstruktiv mövqedən çıxış etmirdi:** "Azərbaycan dəfələrlə bəyan edirdi ki, Ermənistana təzyiq olmalıdır. Biz bu məsələlərdə beynəlxalq ictimaiyyətin ümumi bir mövqeyini gördük. Son hadisələr Ermənistanın siyasi təcriddə olduğunu göstərdi. İkincisi də Azərbaycan Silahlı Qüvvələri mülki vətəndaşlarımıza qarşı təxribatın qarşısını alaraq düşmənin atəş nöqtələrini susdurdu. Nəticə etibarilə bununla da Azərbaycan "status-kvo"nun dəyişməsinə gətirib çıxarıb. Bu, özlüyündə artıq Ermənistanı sülhə məcbur edəcək bir addımdır".

### ""Lavrov təklifləri" yeni bir şey deyil və mahiyyət etibarilə özündə yenilənmiş Madrid prinsiplərini ehtiva edir"

**H.Hacıyev Qarabağın azad olunmasında 5+2 formulundan istifadənin Azərbaycana tələ olub-olmamasına da münasibət bildirdi:** ""Lavrov təklifləri" deyilən fikirlər var idi və keçən il KİV-də geniş yayılmışdı Özlüyündə bu da yeni bir şey deyil və mahiyyət etibarilə özündə yenilənmiş Madrid prinsiplərini ehtiva edir. Sadəcə olaraq, burada konfiqurasiyalar fərqli ola bilər. Yəni 5 rayonun azad edilməsi, növbəti mərhələdə daha 2 rayonun azad edilməsi və s. Bəli, bunlar danışıqlar prosesində gündəmdə olan məsələlərdir. Rəsmi Bakı bu əsasda ciddi və hərtərəfli müzakirələrə hazırdır. Azərbaycanın ərazi bütövlüyü və suverenliyi müzakirə mövzusu deyil. Azərbaycan danışıqlar prosesində ona görə iştirak edir ki, yekunda beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində Azərbaycanın ərazi bütövlüyü və suverenliyi təmin edilir. Azərbaycan prosesdə bu məntiqlə iştirak edir və sülhməramlı, konstruktiv mövqe nümayiş etdirir".

Ermənistanın hazırkı mövqeyinə gəldikdə, XİN sözçüsü bu barədə məlumatlı olmadığını qeyd etdi. Onu da əlavə etdi ki, Ermənistan Silahlı Qüvvələri işğal olunmuş ərazilərdə qaldıqca müharibə və gərginlik hər zaman baş verə bilər.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 78 (6399) 13 aprel 2016

# MSK-nın yeni tərkibi bilindi-sədr müəmması qalır...

## YAP-ın mətbuat katibi Hüseyn Paşayev yeni görəv alacaq, quruma kimin başçılıq edəcəyi yaxın günlərdə bilinəcək

**Milli Məclisdə təmsil olunan bütün siyasi partiyalar - hakim Yeni Azərbaycan Partiyası, Vətəndaş Həmrəyliyi Partiyası, Ana Vətən Partiyası, Demokratik İslahatlar Partiyası, Vətəndaş Birliyi Partiyası, Milli Dirçəliş Hərəkatı Partiyası, Azərbaycan Demokratik Maarifçilik Partiyası, Böyük Quruluş Partiyası, Azərbaycan Sosial Demokrat Partiyası, Sosial Rifah Partiyası, Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyası, Vəhdət Partiyası və bitərəf deputatlar Mərkəzi Seçki Komissiyasında (MSK) təmsil olunacaq nümayəndələrinin siyahısını parlamentə təqdim ediblər.**



Siyahıda Fuad Cavadov, Şaitdin Əliyev, Ramiz İbrahimov, Validə Kazımova, Hüseyn Paşayev, Məzahir Pənahov, İlham Məmmədov, Natiq Məmmədov, Arifə Muxtarova, Nizami Nadirov, Qabil Orucov, Azər Tağıyev, Bəxşeyiş Əsgərov, Etibar Quliyev, Mikayıl Rəhimov, Tofiq Həsənov, Almas Qəhrəmanlı və İlkin Şahbazovun adı var.

MSK-nın 2010-cu ildə formalaşan tərkibindən iki nəfərin - Tamam Cəfərovanın və Akif Qurbanovun adı çıxarılıb, onların yerinə isə Hüseyn Paşayev (YAP) və İlkin Şahbazovun (Sosial Rifah Partiyası) adı əlavə olunub.

A.Qurbanov Ümid Partiyasının MSK-dakı təmsilçisi idi. Lakin 2015-ci ildə keçirilən parlament seçkilərində Ümid Partiyası deputat mandatı qazana bilməyib.

Məsələ Milli Məclisin aprelin 15-də keçiriləcək plenar iclasında müzakirəyə çıxarılacaq.(report.az)

MSK-nın hazırkı tərkibi 2010-cu ildə keçirilən parlament seçkilərindən sonra formalaşdırılıb, tərkibi 18 üzvdən ibarətdir. Komissiya üzvlərini Milli Məclisdə təmsil olunan siyasi partiyaların və bitərəf deputatların irəli sürdüyü namizədlər əsasında Milli Məclis təsdiqləyir.

MSK-nın 2010-cu ildə formalaşan tərkibinə Məzahir Pənahov (sədr), Natiq Məmmədov (sədr müavini), Arifə Muxtarova (katib), Mikayıl Rəhimov (katib), üzvlər Şaitdin Əliyev, Fuad Cavadov, Ramiz İbrahimov, Validə Kazımova, Qabil Orucov, Tofiq Həsənov, İlham Məmmədov, Nizami Nadirov, Azər Tağıyev, Tamam Cəfərov, Bəxşeyiş Əsgərov, Almas Qəhrəmanlı, Akif Qurbanov və Etibar Quliyev daxildir.

Qeyd edək ki, Seçki Məcəlləsinə əsasən, MSK-nın və aşağı seçki komissiyalarının səlahiyyət müddəti 5 ildir. MSK 18 üzvdən ibarətdir. MSK-nın 6 üzvü deputatları Milli Məclisdə çoxluq təşkil edən və onların namizədliklərini təqdim edən siyasi partiyanı, 6 üzvü heç bir siyasi partiyaya mənsub olmayan deputatları, 6 üzvü isə Milli Məclisdə azlıq təşkil edən partiyaları təmsil edir.

Məlumatlara görə, MSK-nın formalaşdırılmasının ləngiməsinin səbəbi M.Pənahovun vəzifəsindən azad ediləcəyi ilə bağlıdır.

M.Pənahovun varisi haqda da ən müxtəlif məlumatlar var. Məsələn, bu posta ən real namizədlər sırasında ölkədə bütün qanunların hazırlanmasında əsas fiqurlardan olan Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynlinin adı çəkilir. Bundan başqa, Prezident Administrasiyasında da bir neçə nəfərin bu posta namizədliyinin müzakirə edildiyi söylənilir. Yeni tərkib formalaşdıqdan sonra sədr məsələsinə də aydınlıq gələcək. Hələ ki müəmma qalır.

❑ "Yeni Müsavat"



# TQDK tarixə qovuşdu; yeni qurum nə vəd edir?

## **Firudin Cəlilov:** "Bu qurum təkcə tələbələrin qəbulunda yox, həm də müəllimlərin, direktorların seçilməsində, olimpiyadalarda iştirak etməlidir"

## **Etibar Əliyev:** "Prezidentin bu fərmanı biliklərin qiymətləndirilməsinin daha təkmil formada həyata keçirilməsinə şərait yaradacaq"

**Prezident İlham Əliyev Dövlət İmtahan Mərkəzi publik hüquqi şəxsin yaradılması, eləcə də Dövlət Qulluğu Məsələləri üzrə Dövlət Komissiyasının və Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının ləğvi haqqında fərman imzalayıb. Fərmana əsasən bu iki qurum ləğv olunur və onların istifadəsində olan dövlət əmlakı Dövlət İmtahan Mərkəzinin balansına verilir.**

Fərman təhsil müəssisələrinə tələbə qəbulunun beynəlxalq təcrübəyə uyğunlaşdırılmasını nəzərdə tutur. Dövlət İmtahan Mərkəzi publik hüquqi şəxs Azərbaycanda dövlət qulluğu üçün kadrların müsabiqə əsasında seçilməsini, ümumi təhsil pilləsində təhsil alanların yekun qiymətləndirilməsini, orta ixtisas təhsili müəssisələrinə, ali təhsil müəssisələrində ali təhsilin bakalavriat və magistratura səviyyələrinə, AMEA-da magistratura səviyyəsinə mərkəzləşdirilmiş qəbul imtahanlarının keçirilməsini təşkil etmək məqsədilə yaradılır. Qurumun idarəetmə orqanı 7 nəfər üzvdən ibarət Direktorlar Şurasıdır. Şura sədrinin, sədr müavinlərinin və digər üzvlərin vəzifəyə təyin və vəzifədən azad edilməsi, onların səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi prezident tərəfindən həyata keçirilir.

Yeni yaradılan qurumun necə fəaliyyət göstərəcəyi, test imtahanlarında hansısa dəyişikliklərin edilib-edilməyəcəyi isə cəmiyyətdə sual doğuran əsas məqamlardan biridir.

Təhsil ekspertləri yeni qurumun yaradılmasının müsbət tendensiya yaradacağını deyirlər.

**Sabiq təhsil naziri Firudin Cəlilov "Yeni Müsavat"a açıqlamasında TQDK-nın ləğvini və yeni qurumun yaradılmasını alqışladı və bu təklifi illər öncə səsləndirdiyini vurğuladı:** "Mən bu islahatı çoxdan gözləyirdim. Bizim TQDK-nı yaratmaqda məqsədimiz o idi ki, bu sistem qurulsun, daha sonra ümumiyyətlə, qəbul imtahanları ləğv olunsun. Bu mənada TQDK-nı ancaq tələbə qəbuluna işlətmək düzgün deyildi. Biz onu yaradanda fikirləşmişdik ki, bugünkü kimi müxtəlif sahələrdən bu quruma sifariş verilsin. TQDK da sifariş verən qurum üçün imtahan keçirsin. Məsələn, dövlət qulluğunda müxtəlif sahələrə, Xarici İşlər Nazirliyi, Gömrük Xidmətinə və digər sahələrə işçi qəbulunun həyata keçirilməsində bu qurum iştirak edir. Çünki bunların təcrübəsi var, imtahan proqramı var. Yəni biz bu qurumu təkcə tələbə qəbul etmək üçün yaratmamışdıq. Təəssüf ki, 20 il ərzində mənim dediklərim havada qaldı və indi bunu reallaşdırıblar".

**Test imtahanlarının bundan sonra necə həyata keçiriləcəyinə gəlincə, Firudin Cəlilov bildirdi ki, bu haqda məlumatlı deyil:** "İndi test imtahanlarının necə keçiriləcəyini mən deyə bilmərəm. Ancaq mənim təklifim belə olub ki, qəbul məsələlərini qaydaya salandan sonra, orta məktəblərdən buraxılış imtahanı həm də qəbul imtahanı olsun. Burada həm də ixtisaslar müəyyənləşsin ki, hansı abituriyent hansı sahəyə gedə bilər. Sonrakı mərhələ isə abituriyentlərin özlərindən asılıdır. Oxumaq istəyirsə, gedib sənədlərini verib özü oxuyur, oxumaq istəməyən də sənəd vermir. Daha sonra, birinci semestrdən sonra institutlarda ələnmə gedir, oxuya bilən qalır, oxuya bilməyən isə gedib başqa sahəyə yönəlir. Bu, dünya təcrübəsində mövcud olan bir sistemdir və mən gözləyirəm ki, nə vaxtsa Azərbaycanda da olacaq".

**Sabiq təhsil naziri qeyd etdi ki, Dövlət İmtahan Mərkəzi sifariş qəbul edən bir quruma çevrilməlidir:** "Təhsil Nazirliyi də bu quruma tələbə qəbulu ilə bağlı sifariş verməlidir. Təkcə tələbələrin qəbulunda yox, həm də müəllimlərin, direktorların seçilməsində, olimpiyadalarda bu qurum iştirak etməlidir".

**Təhsil eksperti Etibar Əliyev isə"Yeni Müsavat"a açıqlamasında TQDK-nın bu günə qədərki fəaliyyətini müsbət qiymətləndirdi:** "Tələbə Qəbulu üzrə Dövlət Komissiyası yarandığı gündən şərəfli tarixi yol keçib. Və ölkədə ən nüfuzlu qurumlardan biri olub. TQDK təkcə abituriyentlərin biliklərini qiymətləndirmirdi. Bu qurumun genişlənmiş fəaliyyəti ilə adı arasında bir uyğunsuzluq mövcud idi. Nə vaxtsa biliklərin qiymətləndirilməsinin vahid mərkəzi yaradılmalı idi. Biz bunu təhsil eksperti kimi dəfələrlə vurğulamışıq. Yeni qurumun Dövlət İmtahan Mərkəzi adlandırılması doğrudur. Bu mərkəz Azərbaycanda dövlət qulluğu üçün kadrların müsabiqə əsasında seçilməsini, ümumi təhsil pilləsində təhsil alanların yekun qiymətləndirilməsini, orta ixtisas təhsili müəssisələrinə, ali təhsil müəssisələrində ali təhsilin bakalavriat və magistratura səviyyələrinə, Azərbaycan Milli Elmlər Akademiyasında magistratura səviyyəsinə mərkəzləşdirilmiş qəbul imtahanlarının keçirilməsini təşkil etmək məqsədilə yaradılıb. Əslində göstərilən istiqamətlərdə biliyin qiymətləndirilməsində müəyyən sistemsizlik mövcud idi və prezident fərmanı bu işlərin müəyyən sistem halına salınmasına şərait yaradacaq".

**Etibar Əliyevin fikrincə, TQDK-nın tətbiq etdiyi imtahan fəlsəfəsi saxlanılacaq:** "Çünki bu təcrübə artıq oturuşub və hələlik alternativi də yoxdur. Sadəcə, işlərin uzlaşdırılması prosesi həyata keçiriləcək ki, bu da əhəmiyyətli məsələdir. Prezidentin bu fərmanı cəmiyyət üçün çox böyük əhəmiyyət kəsb edən biliklərin qiymətləndirilməsinin daha təkmil formada həyata keçirilməsinə şərait yaradacaq. Daha mühüm bir məqam ondan ibarətdir ki, bu fərman həm də biliklərin qiymətləndirilməsinin ierarxiyasını müəyyənləşdirdi. Bunun özü də çox önəmli məsələdir".

**Etibar Əliyev həmçinin bu quruma verilən əlavə səlahiyyətləri də müsbət qiymətləndirdi:** "Bütün bunlarla yanaşı, yekun qiymətləndirmənin (attestasiyanın) təşkili məqsədi ilə ümumi təhsil müəssisələrinin V-XI sinif şagirdləri arasında monitorinq imtahanlarının keçirilməsi, imtahan fənləri üzrə qəbul proqramlarının hazırlanması və Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə razılaşdırmaqla təsdiq edilməsi, həmçinin ölçmə-qiymətləndirmə materiallarının nümunələrinin hazırlanması bu yeni quruma həvalə olunub. Göründüyü kimi, qurumun şəffaf və obyektiv fəaliyyəti üçün xeyli səlahiyyətlər verilib. Dərsliklərdəki qüsurların aradan qaldırılması məqsədilə mərkəzin daha səmərəli çalışması naminə ümumtəhsil fənləri üzrə istifadə edilən bütün dərs və digər tədris vasitələrinin Təhsil Nazirliyinin sifarişi əsasında elmi-metodik monitorinqini həyata keçirmək səlahiyyətini də müsbət qiymətləndirmək olar. Cari tədris ilinin abituriyentləri bilməlidirlər ki, imtahanların təşkili və formatında dəyişiklik aparmaq mümkün deyil. Buna görə də imtahanqabağı hansısa narahatçılığa heç bir əsas olmamalıdır. Bu qurumun yaradılması biliyin qiymətləndirilməsi işinin daha da yaxşılaşdırılmasına xidmət edəcək".

**Azad Müəllimlər Birliyinin sədri, təhsil eksperti Məlahət Mürşüdlü də "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, bu çox doğru bir dəyişiklikdir:** "TQDK-nın funksiyası adının daşıdığı məzmundan daha geniş idi. Bütün qəbul proseslərinin bir qurumda birləşdirilməsi həyata keçirilməli idi. Yeni yaradılan qurum daha geniş profilli imtahanlar həyata keçirəcək. Mən test sisteminin ləğv ediləcəyinə inanmıram. Mən fərmandan da belə başa düşdüm ki, söhbət testin ləğvindən getmir. Gələcəkdə ola bilər test ləğv edilsin. Lakin hazırda ən obyektiv seçim vasitəsi testdir. Testin ləğv edilməsinə yox, təkmilləşdirilməsinə ehtiyac var".

❑ Nərgiz LİFTİYEVA

## **Məlahət Mürşüdlü:** "Söhbət testin ləğvindən getmir"

YENİ MÜSAVAT
N 78 (6399) 13 aprel 2016

# “Elçibəyin bütün əşyaları evindədir...”

## Mərhum eks-prezident Əbülfəz Elçibəyin əşyaları haqda maraqlı faktlar açıqlanıb

**Dünya təcrübəsində məşhur insanların, o cümlədən tanınmış siyasi liderlərin, incəsənət adamlarının şəxsi əşyalarının hərraca çıxarılması bir növ adət halını alıb. Əksər dünyasını dəyişən məşhurların əşyaları, geyimləri həmişə diqqət mərkəzində olub. Vəsiyyətnamədən asılı olaraq çox zaman bu cür əşyalar xeyriyyə məqsədi ilə hərraca çıxarılır.**

Son dövrlər həyatda olan məşhurlar belə öz dəyərli əşyalarını toplayaraq baha qiymətlərlə satışa çıxarmağa başlayıblar. Məsələn, bugünlərdə dünyaca məşhur müğənni Ledi Qaqanın uşaqlıqdan istifadə etdiyi pianosunun hərraca çıxarılacağı barədə xəbərlər yayıldı. Məlumata görə, hərrac Nyu-Yorkun kafelərinin birində keçiriləcək. Təşkilatçılar pianonun azı 100 min dollara satılacağına ümid edirlər.

Bəs Azərbaycanda hansı məşhurların əşyaları, geyimləri hərraca çıxarılıb? Xeyriyyə məqsədi ilə və ya qazanc əldə etmək üçün kimlər hərraca qoşulmaq istəyər?

Məsələ ilə əlaqədar kiçik araşdırma apararkən mərhum eks-prezident Əbülfəz Elçibəyin əşyaları ilə maraqlandıq.

**Qardaşı Almurad Əliyev bu barədə “Yeni Müsavat”a maraqlı açıqlamalar verdi:** “Onun bütün əşyaları öz evimizdədir. Hamısını özüm bir yana yığıb qoymuşam. Əşyalarının arasında qəlyanı, silahı, hər şey var... Onları satışa çıxartmamışam, çıxartmaq fikrində də deyiləm...

Maşını da həyətlərindədir. Hərdən oğlu çıxarıb gəzir, sonra gətirib yerinə qoyur. Hələ mən fikirləşirdim ki, maşınını satım, qalıb xarab olur. O da oğlu bir az razı olmadı. Oğlunun maşını var özünün... O vaxtlar təklif olunmuşdu ki, əşyaları yığılıb qorunsun. Lakin sonra üstünə də düşmədik, qaldı. Əlbəttə ki, əşyaları üçün ayrıca muzey kimi olsa yaxşı olar. O vaxt özləri təklif etmişdilər, sonra da ki, hər ikisinə də Allah rəhmət eləsin, qaldı".

**Mövzu ilə əlaqədar deputat Fərəc Quliyevə də müraciət etdik. Deputat bu cür məsələlərə qəribə yanaşdığını bildirdi:** “Ümumiyyətlə, mən belə şeylərə çox qəribə baxıram. İlin-günün bu vaxtında heç adamın ağlına belə bir şey gəlməz. Bizim dində də göstərilir ki, sağ əlin verdiyini sol əl bilməz, xeyriyyə işləri ilə məşğul olacaqsa olacaq. Biz də əlimizdən gələn qədər bu işlə məşğul olanda çalışımışıq ki, bu, hiss olunmasın və bu məqbuldur... Amma mən paltar, maşın və sairə satmaqla xeyriyyəçiliklə məşğul olmanın da real olduğunu görmürəm. Özümü də elə bir məşhur adamlardan hesab etmirəm ki, hansısa əşyamı baha qiymətə satım və sairə. Mən sadə həyat tərzi yaşayıram, avtomobilimi də özüm idarə edirəm, cangüdənim yox, bütün günü əhalinin yanındayam. Başqa birisi haqda da desəz ki, Azərbaycan cəmiyyətində əşyalarını satmaqla xeyriyyəçiliklə məşğuldur, mən inanmaram”.



### Məşhurlardan kimlər əşyalarını hərraca çıxarıb?

**Sənətçilərdən xalq artisti Flora Kərimova hələ ki əşyalarını satmağa hazır olmadığını bildirdi:** “Mənim əşyalarım səhnə paltarlarımdır. Onu da ki, adi adamlar geyinməz axı... Satmaq sözü mənə ağır gəlir. Hələ bu sözə hazır deyiləm”.

**Xalq artisti, aktyor Ramiz Novruz isə əşyalarını satmaqdansa, onları bağışlamağı çox sevir. Bu barədə aktyor “Yeni Müsavat”a açıqlamasında deyib:** “Dünya çapında məşhur deyiləm (gülür). Belə bir şey təcrübəmdə olmayıb. Adətən məndə nəsə olanda kiməsə bağışlayıram. Satmaq fikrim olmayıb heç zaman. Geyimimdə nə olubsa adətən bağışlayıram”.

**Xalq artisti bağışladığı maraqlı əşyalardan da söz açıb:** “Filmdə çəkilən Həzi Aslanovun paltarı *(”Mən sizi dünyalar qədər sevirəm" filmi - red.)* mənə verilmişdi. O da kinostudiya dağılmışdı deyə onu tapa bilmədim. Bax onu əldə etmək istəyirəm... Sonra filmdə çəkilən tank var idi. O da məndə idi. Onu da oğlum əlil bir uşağın xoşuna gəldiyi üçün ona bağışlamışdı...

Mən ümumiyyətlə əşyalarıma bağlanıram. Tutaq ki, maşınımın aylar, illər keçdikdən sonra modeli dəyişməsinə baxmayaraq, mən dəyişmirəm. Çünki bir şeyə meylimi saldımsa, ayrıla bilmirəm ondan".

Xatirladaq ki, bugünlərdə mərhum xalq artisti İlhamə Quliyevanın geyim əşyalarının hərraca çıxarıldığı barədə mətbuatda məlumat yayılmışdı. Məlumata görə, mərhum müğənninin geyimləri “Primaddona” dükanlar şəbəkəsində baha qiymətə satılır. Lakin müğənninin oğulluğu bu barədə “Yeni Müsavat”a açıqlama verərək məlumatı təkzib etmişdi.

❑ Xalidə GƏRAY

# Qanlı döyüşlərin səbəbi Talış kəndinin kökü haradan gəlir?

**Tərtərdə gedən döyüşlər zamanı Talış kəndinin ermənilərdən alınması bu kəndin adı ətrafında müxtəlif suallar yaratdı. Azərbaycan ərazisində bu və digər millətlərin adını daşıyan kəndlər kifayət qədərdir. Buna misal olaraq Füzulidə, Göyçaydakı Kürd kəndi, Goranboydakı Safıkürd kəndi, Padarlar kəndi və s. göstərmək olar. Ümumiyyətlə, hər kəsə məlumdur ki, Azərbaycanda çoxsaylı xalqlar yaşayır. Lakin Azərbaycanın ərazilərindəki kəndlərin bu xalqların adını daşıması barədə deyilənlər nə dərəcədə doğrudur?**



**Dilavər Əzimov:** “Tərtərdə yerləşən Talış kəndi indiki talış anlamında deyil”



**Nizami Cəfərov:** “Bu adların heç də hamısı o xalqları xarakterizə etmir”



**Fazil Mustafa:** “İnsanlar bu adlara bir kültür, mədəni miras kimi baxsınlar”

**Tarix üzrə fəlsəfə doktoru Dilavər Əzimov** bunun olduqca ciddi bir məsələ olduğunu dedi: “Kənd adları, ümumiyyətlə isə toponimlər məsələsi olduqca ciddi məslədir. Bu adlardan birinin dəyişdirilməsi üçün həmin sahə üzrə bütün mütəxəssislər dəvət olunmalıdır. Bu günə qədər çox kəndin və şəhərin adını dəyişdirərkən ciddi səhvlərə yol veriblər. Adı dəyişənlər həmin ərazinin tarixini bilməlidir. Tərtərdə yerləşən Talış kəndi indiki talış anlamında deyil. Talış sözü o zaman ərazi bildirirdi. Bu ada uzaq Çindən tutmuş türklərin yaşadıqları bütün ərazilərdə də rast gəlinir. Bu söz protomonqol toponimidir. Bilirsiniz ki, bir zaman ərazi bildirən sözlər sonradan xalq adına çevrildi. Talış, ləzgi sözü də buradan qaynaqlanır. Vahid talış xalqı yoxdur. Orada yaşayanlar drığlar, brığlar, oyrtalar, zuvandlar və sairədirlər. Məsələn, dağlara Talış dağları deyirlər. Bu dağlara o ad monqolların gəlişindən sonra verilib. Ərəb mənbələrində belə ad yoxdur. Amma sıra dağlar kimi xatırlanır. O cümlədən kürdlə bağlı adlar da buraya daxildir. Bir zaman bunların qurd adı ilə bağlı olduğunu deyirdilər. Sonradan kürdə çeviriblər. Orta əsrlərdə işlənən kürd bugünkü kürdü nəzərdə tutmur. O zaman dağlarda yaşayanlara kürd deyirdilər və onlar şəhər mədəniyyətindən uzaq idilər. Ona görə də oturaqlar onlara qarşı bu ifadəni işlədirdilər. Məsələn, dağlarda yaşayan türklərə də kürd deyirdilər. Hətta bəzi ərəb qövmlərində də bu ifadəni işlədiblər. Sonradan bunların mənasını təhrif ediblər. Kürdlərlə bağlı adların olması təbiidir. Amma bu o demək deyil ki, orada yalnız kürdlər yaşayıb”.

**D.Əzimov dəyişilən bir çox yer adlarında ciddi səhvlərə yol verildiyini bildirdi:** “Cəlilabadda ən qədim yerlərin adını dəyişib yeni adlar qoyanda ciddi səhvlərə yol verdilər və tariximizi təhrif etdilər. Məsələn, Tovuzda Ayıblı kəndi var idi. Onun adını dəyişdilər. Bu kəndin qədimdə adı Alplar olub. Adı dəyişənlər tarixi bilmədiyi üçün başa düşmədilər ki, bu adı sonralar təhrif edib türklərə qarşı işlədiblər. Onun tarixi adı olan Alpları qaytarmaq lazım idi. Adları gülüş doğuran kəndlərin tarixi qədim deyilsə, bu ad sonradan qoyulubsa, onu dəyişmək olar”.

**Dilçi alim Nizami Cəfərov bildirdi ki, bu adların heç də hamısı o millətləri xarakterizə etmir:** “Dünyanın hər yerində bu cür hallar var. Etnos adı ilə bu və ya başqa coğrafiyada toponimlər var. Buna etnotoponimlər deyilir. Ümumiyyətlə, hər hansısa yer adını, o cümlədən bu cür adları dəyişmək olmaz. Çünki bunlar tarixdir. Azərbaycanda vaxtilə ərəblər olub və çoxlu yerlərdə ərəbqədim və sairə kimi yer adları var. Bu, tarixdir və dəyişdirilməsi mümkün deyil. Dünyanın çox yerlərində, coğrafiyalarda türk adları var. Türk adı ilə kəndlər, yerlər var. Onu da kimsə dəyişərsə, əlbəttə ki, yaxşı qəbul olunmaz. Konkret olaraq talış adına gəlincə isə burada məsələ mürəkkəbdir. Çünki bu adların heç də hamısı indiki İran mənşəli o xalqın adı ilə bağlı deyil. Bunun müxtəlif formaları olub. Bu bizim toponomiya elmində də var. Törös deyilən bir türk tayfası olub. Eyni zamanda Asiyada Talas deyilən yerlər var. Yəni bunlar fonetik dəyişmələr hesab olunur. Əslində töröslər, talaslar türk tayfalarından birinin adıdır. Məsələn, bizdə talışlar Azərbaycan xalqının tərkib hissəsidir. Onların yaşadığı yerlərdə bu tipdə adlar ola bilər. Burada heç bir gərginləşdirici bir hal yoxdur. Amma bütün talış sözləri, içində talış sözü olan yer adları heç də talışları ifadə etmir. Dediyim kimi, bunlar fonetik dəyişmələrdir və bunu mən özümdən kəşf etməmişəm, dilimizdə mövcud olan bir şeydir. Buna görə də nəyisə nəyəsə uyğunlaşdırmağımız düzgün olmazdı”.

**Deputat Fazil Mustafa bildirdi ki, bu adalara milli kültür, miras kimi baxmaq lazımdır:** “Mən bu adların dəyişilməsində bir məna görmürəm. Daha yaxşı olardı ki, insanlar o adlara bir kültür, mədəni miras kimi baxsınlar. Bir siyasi vasitə və ya ad kimi qəbul etməsinlər. Məsələn, hər hansısa bir dövrdə Ərəblər, yaxud da Padarlar, Kürdlər adlı kəndlər var. Elə Talış kəndində də heç də talışlar yaşamayıb. Bu, tarixlə bağlı məsələdir. Bu adlarda heç bir təhlükə yoxdur və onlara bir kültür mirası kimi baxılmalıdır. Azərbaycan türklərlə yanaşı həm də çoxsaylı xalqların yaşadığı bir ölkədir. Bizim ölkəmiz çox zəngin mədəniyyətə sahib bir ölkədir. Bu adların olması da bizim zənginliyimizin göstəricisidir. Bu adları dəyişmək və ya hansısa korrektələr etməyə ehtiyac yoxdur”.

**Azərbaycanda olan və qəribə səslənən, gülünc doğuran kənd adlarına gəlincə isə F.Mustafa bu adlarda müəyyən düzəlişlərə ehtiyac olduğunu dedi.**

❑ Günel MANAFLI

YENİ MÜSAVAT
N 79 (6399) 13 aprel 2016

# Cəlilabadda yoxa çıxan 50 atın izi Bakı istiqamətində itir!

**"Cəlilabadda 1 gündə 50 at yoxa çıxıb" xəbəri ilə, "Bakıya gətirilən 700 kiloqram at əti tutuldu" xəbəri 5 gün fərqlə yayıldı. Bu xəbərlərin izi ilə başladığımız kiçik araşdırma çox maraqlı mətləblərin üzərinə işıq salıb.**




# Azərbaycanda "Leşyığanlar şəbəkəsi" milləti zəhərləyir - şok faktlar

## Mütəxəssislər həyəcan təbili çalır; Eyyub Hüseynov: "Rayonlardan toplanan leşlər gecəyarısı 4-cü mikrorayona gətirilir, orada ona "tovarnıy vid" verib bazara çıxarırlar..."

Aprelin 12-də yayılan məlumatda bildirilirdi ki, Cəlilabad rayonunda kəndlilərə məxsus atlar kütləvi olaraq otlaq sahəsindən yoxa çıxıb. "Report"un yaydığı xəbərə görə, hadisə rayonun Soyuqbulaq kəndində baş verib. Kənd sakinləri bildirib ki, gündüzlər atları təsərrüfat işlərinə cəlb edir, axşamlar isə onları otlamaq üçün yaxınlıqdakı örüş sahəsinə buraxıblar. Lakin səhər axtarsalar da, kəndlilər atlarını örüşdə tapa bilməyiblər.

Ümumilikdə bir neçə gün ərzində Soyuqbulaq kəndindən müxtəlif şəxslərə məxsus 50 başdan yuxarı at yoxa çıxıb. Kəndlilər ANS-in müxbirlərinə deyiblər ki, atlarının oğrulandığını və kolbasa sexlərinə verildiyini güman edirlər. Kəndlilər yoxa çıxmış atlarının izinə düşə bilmədiklərindən polisə müraciət ediblər. Cəlilabad Rayon Polis Şöbəsindən (RPŞ) bildiriblər ki, artıq şübhəli şəxslər müəyyən edilib, hazırda onların saxlanılması üçün tədbir görülür.

Aprelin 7-də yayılan xəbərdə isə deyilirdi ki, Qaradağ postunda Daxili İşlər Nazirliyi (DİN) Baş İstintaq və Təhqiqat İdarəsinin əməkdaşları Bərdə rayon sakini Faiq Qərib oğlu Süleymanova məxsus avtomobildə 17 at cəmdəyi aşkar ediblər. Ümumilikdə 700 kq-a yaxın olan at cəmdəkləri Respublika Baytarlıq Laboratoriyasına təqdim olunub və məlum olub ki, ət qida üçün yararsızdır, baytarlıq-sanitariya tələblərinə cavab vermir. Faiq Süleymanov at cəmdəklərini kimdən aldığı, hara apardığı haqda DİN müstəntiqlərinə ifadə verdiyi bir vaxtda Cəlilabaddan 50 atın yoxa çıxması haqda məlumatın gəlməsi müəyyən nəticələr çıxarmağa əsas verir. Belə görünür ki, yoxa çıxan 50 atdan 17-ni polis 5 gün əvvəldən aşkarlayıb, amma dərisi boğazından çıxarılmış şəkildə. Bəs Faiq Süleymanov at cəmdəklərini Bakıda hara aparırdı?

**"Azad İstehlakçılar Birliyi"nin sədri Eyyub Hüseynov "Yeni Müsavat"ın müxbirinə deyib ki, 15 ilə yaxındır ki, murdar at, qeyri-ənənəvi ətləri Bakıya gətirən şəbəkəni ifşa etmək istəyirlər. Amma buna nail ola bilmirlər:** "Dövlət orqanlarına Bakıda murdar ətlərin emal olunduğu, saxlandığı, satıldığı ünvan haqda məlumat vermişik. Nəsimi rayonu ərazisində 4-cü mikrorayonda yerləşən həmin sallaqxana illərdir fəaliyyətdədir. Bu yer haqda məlumat veririk, lakin dövlət orqanlarının ora ilə bağlı birgə fəaliyyətinə nail ola bilmirik. Polisə məlumat veririk, deyir, biz təhlükəsizliyi qoruyarıq, amma oradan ət götürüb ekspertizaya təqdim edə bilmərik. Çox təəssüflər olsun ki, dövlət orqanları bu haqda heç bir tədbir görmək istəmir".

### "At və eşşək ətinin Bakıya gətirilməsi adi haldır"

**Eyyub Hüseynov deyir ki, Azərbaycanda qida üçün təhlükəli olan ətlərin satışı var və davam edir:** "At, eşşək ətinin Bakıya gətirilməsi adi haldır. Dövlət orqanları ara-sıra Bakıya belə ətləri daşıyan şəxslərin 1-2-ni tutur, lakin onların həmin əti hara, kimə gətirdiklərini qətiyyətlə açmaq istəmirlər".

**Birlik sədrinin sözlərinə görə, at və eşşək ətinə Bakıda tələbatın olması göz qarşısındadır:** "Tələb olmasa, təklif də olmaz. Deməli, Bakıda at və eşşək ətinin sonrakı emalı, emaldan sonra ətlərin istifadəsi üçün real şərait var. Dövlət orqanlarının bunu açıq deməməsində də şübhəli məqamlar mövcuddur".

**E.Hüseynov Bakıda "Leşyığanlar şəbəkəsi"nin fəaliyyət göstərdiyini də bildirdi:** "Bu şəbəkəyə aid konkret ünvanları, leş və at-eşşək əti alan şəxslərin əlaqə vasitələrini də dövlət orqanlarına vermişəm. Mən bu məlumatları ayrı-ayrı şəxslərdən almışam və dövlət orqanlarına vermişəm. Dövlət orqanları həmin məlumatları yoxlayıb təsdiq və ya təkzib etməlidirlər. Lakin heç bir reaksiya vermirlər".

### "Leş ətinə "tovarnıy vid" verib bazara çıxarırlar"

**Birlik sədri deyir ki, aprelin 12-də Saatlıdan ona leşyığan şəxslər barəsində məlumat verilib:** "Azərbaycanın müxtəlif rayonlarından toplanan leşlər gecəyarısı 4-cü mikrorayondakı ünvana gətirilir. Orada leşin üzərində səhərə qədər iş gedir, leşin ətinə "tovarnıy vid" verib bazara çıxarırlar. Saatlıdan bir fermer mənə ərizə yazıb ki, ölmüş inəyi qamışlığa atıb. Bunu ona görə edib ki, xəstəlikdən ölmüş heyvanı itlər yeyib xəstələnməsinlər. Az sonra isə görüb ki, leşyığanlar inəyi aparır. Mənə yazmışdı ki, bununla bağlı dövlət orqanına məlumat verim. Verdim, xeyri olmadı. Dövlət orqanları 20 ton mənşəyi bilinməyən əti yolda tutur, amma həmin ətin hara aparıldığını araşdırmırlar. Araşdırırlarsa da, bu haqda ictimaiyyətə məlumat vermirlər. Gizlədirlər. Deməli, ortada çox ciddi mətləblər var və bu məsələlər 15 ildir ki, araşdırılmır!"

**E.Hüseynovun sözlərinə görə, "Leşyığanlar şəbəkəsi"nin fəaliyyət arealını da müəyyən ediblər:** "Bu şəbəkə Cəlilabad, Neftçala, Salyan, Sabirabad, Saatlıda, bir sözlə, Bərdədən tutmuş Orta Muğan ərazilərində çox aktiv şəkildə fəaliyyətdədir. Bu rayonlarda konkret adamlar var. İnəyin ölüb murdar oldu, atın xəstələndi, eşşəyin qocaldı, zəng elə, gəlib heyvanı ölüsünə-xəstəsinə baxmadan alacaqlar. Belə heyvanların ətini qəpik-quruşa alırlar".

**Birlik sədri deyir ki, bu illər ərzində "Leşyığanlar şəbəkəsi"nin cəmi 1 üzvünün cəzalanmasına nail ola biliblər:** "Sabirabaddan zəng edib demişdilər ki, zibilliyə atdığım ölmüş heyvanı leşyığanlar soyur. Polisə məlumat verdik və həmin şəxsi tutub cərimələdilər. Bu şəbəkəni tam ifşa etmək bizim imkanlarımız xaricindədir".

### At-eşşək ətinin Azərbaycanda satışında erməni barmağı varmış!!!

**E.Hüseynov deyir ki, sovet dövründə qəbul olunmuş qərara görə, Azərbaycanda at və eşşək əti yeməli ət kimi göstərilib:** "Həmin qərarın ləğv olunması haqda müvafiq əmr yoxdur. Əminəm ki, həmin qərarı o dövrdə ermənilər qəbul etdirib. 15 sovet respublikasından yalnız Azərbaycanda belə ətlərin yeyilməsinə rəsmi qərarla icazə verilib. Bu gün İqtisadiyyat Nazirliyinin səlahiyyəti var ki, həmin qərarı ləğv etsin".

**E.Hüseynov daha sonra bildirdi ki, at ətini Bakıya təkcə bazarlarda satmaq üçün deyil, xaricilərin getdiyi bahalı restoranlara, müəyyən şadlıq evlərinə də gətirirlər:** "Bəzi Avropa dövlətlərində at əti delikates hesab olunur. Ola bilər ki, Bakıda avropalıların getdiyi restoranlara da at əti satılsın. Bakıda müəyyən restoranlar, şadlıq evləri var ki, murdar ətlə işləyirlər. Bizi yandırıb tökən budur ki, dövlət orqanları 20 ton at-eşşək ətinin hara daşındığını, hansı məhsulun istehsalı üçün Bakıya aparıldığını deməkdən yayınırlar. Buna mütləq aydınlıq gətirilməlidir. Yoxsa kəndlərdən at-eşşəklər hələ çox yoxa çıxacaq!"

**"Bakıda müəyyən restoranlar, şadlıq evləri var ki, murdar ətlə işləyirlər. Bizi yandırıb tökən budur ki, dövlət orqanları 20 ton at-eşşək ətinin hara daşındığını, hansı məhsulun istehsalı üçün Bakıya aparıldığını deməkdən yayınırlar"**

### "Səlahiyyətimiz bu məsələləri araşdırmaq üçün yetərli deyil"

**Məsələ ilə bağlı Dövlət Baytarlıq Xidməti ilə də əlaqə saxladıq. Qurumun mətbuat xidmətini rəhbəri Yolçu Xanvəli "Yeni Müsavat"ın müxbirinə bildirdi ki, Bakıya daşınan mənşəyi məlum olmayan ətlərlə bağlı araşdırma aparmağa çalışırlar:** "Həmin ətləri gətirən adamlar bizlərə bu haqda məlumat vermirlər. Demirlər ki, həmin ətlər hansı nöqtədən gəlir və hansı nöqtəyə çatmalıdır. Təəssüf ki, həmin şəxslər müştərilərinin kimliyini bizə demirlər. Bu məsələni hüquq-mühafizə orqanları araşdırmalıdır. Bizim gücümüz, səlahiyyətimiz bu məsələləri araşdırmaq üçün yetərli deyil".

### 2016-cı ildə Bakıya 65-70 ton at-eşşək əti gətirilib!

Yolçu Xanvəli ilin əvvəlindən Bakıya satış məqsədi ilə gətirilən at-eşşək, mənşəyi bilinməyən ətlərin ümumi çəkisi haqda da məlumat verdi: "Eyyub Hüseynov 20 ton rəqəmini haradan götürüb bilmirəm, ilin əvvəlindən bu günə qədər Bakıya gətirilən və satışı nəzərdə tutulan 65-70 ton mənşəyi bilinməyən ət gətirilib. İlin əvvəllərində Bərdədə 25 ton, Bakının Güzdək qəsəbəsində 4 ton və müxtəlif yerlərdə mənşəyi bilinməyən ətlər aşkar olunub".

**"Bu qədər mənşəyi bilinməyən əti alan kimdir, həmin ətlərdən hansı məhsullar istehsal oluna bilər" sualına Xanvəlinin cavabı belə oldu:** "Biz aşkar etdiyimiz mənşəyi bilinməyən, keyfiyyətsiz ət məhsullarını zərərsizləşdirərək məhv edirik. Aşkar edə bilmədiyim isə şadlıq evlərinə, müxtəlif dönərxanalara, kolbasa məmulatları istehsal edən sexlərə gedə bilər. Biz aşkar etdiyimiz belə ətləri zərərsizləşdiririk. Bu yaxınlarda Masazırdakı Quşçuluq massivində mənşəyi bilinməyən ətlərdən kolbasa və kolbasa məmulatları istehsal edən sex aşkar olundu. Həmin sexdən götürülən ətlər baytarlıq haqda qanunvericiliyə uyğun olaraq məhv olundu. Sabunçu rayonu, Bakıxanov qəsəbəsində bu ilin fevralında mənşəyi bilinməyən ətlərdən kolbasa hazırlayan belə bir sex aşkarlanmışdı".

**Y.Xanvəlinin sözlərinə görə, kolbasa məhsulları istehsal edən sexlər qeydiyyata alınır. Həmin sexlərdə kolbasa istehsalı üçün istifadə olunan ətlərin yoxlanılması səlahiyyəti də Dövlət Baytarlıq Xidmətinə məxsusdur:** "Məsələ ondadır ki, Masazırdakı sex də qeydiyyatda olub. Biz sexdə istehsalda istifadə olunan ətin haradan alınması haqda baytarlıq sənədi tələb edirik. Əgər belə sənəd təqdim olunmursa, ət mənşəyi bəlli olmayan məhsul kimi götürülür və yoxlanılır".

**Müsahibimiz kolbasa və kolbasa məmulatları istehsal edən böyük şirkətlərdə Dövlət Baytarlıq Xidmətinin nümayəndələrinin olmadığını da dedi:** "Amma biz həmin şirkətlərdə yoxlama apara bilərik. Həmin şirkətlərin özlərinin laboratoriyaları var, orada yoxlayırlar".

**Xidmət rəhbərinin sözlərinə görə, Azərbaycanda at ətinin satışına qadağa yoxdur:** "Əgər at əti yoxlanılarsa, sağlam heyvanın əti olduğu təsdiq olunarsa və öz adı altında satılarsa, buna heç bir problem yoxdur".

**Y.Xanvəli deyir ki, bu günə qədər Dövlət Baytarlıq Xidmətinə at ətini satmaq istəyən kimsə həmin ətin müayinə olunması üçün müraciət etməyib:** "Sahibkar atı varsa və kəsib satmaq istəyirsə, bu halda Baytarlıq Xidmətinə müraciət etməlidir. Xidmət əməkdaşları gəlib atdan nümunələr götürməlidirlər. At sağlamdırsa, bu halda əti öz adı altında satışa çıxarıla bilər. Yəni bazarda satılanda üzərində konkret olaraq "At əti" sözləri yazılmalıdır. Atlarda insan həyatı üçün çox təhlükəli olan xəstəliklər - manqo, fatko deyilən viruslar var. Həmin viruslar at ətində qida kimi insan bədəninə düşdükdə ölüm baş verə bilər".

### 300 manat ödə, mənşəyi bilinməyən ətdən sat!

**Sonda Y.Xanvəli mənşəyi bəlli olmayan ətlərin satışının təşkilinə görə nəzərdə tutulan qanuni tədbirlər haqda sualımıza belə cavab verdi:** "At-eşşək, mənşəyi bilinməyən heyvanların ətinin satışına görə İnzibati Xətalar Məcəlləsi ilə cərimə nəzərdə tutulur. Bu cərimənin miqdarı 200-300 manatdır".

❑ E.MƏMMƏDƏLİYEV

YENİ MÜSAVAT
N 78 (6399) 13 aprel 2016





# “Lənkəranski” kürd mafiozlara qarşı- Ural uğrunda savaş qızışır

## “Rövşən Lənkəranski”nin Yekaterinburqda yaxın adamı tutuldu; Uralda “nəzarətçi” postunun boş qalması o demək deyil ki, “Ded Xasan” klanı buranı rahatlıqla əldən verəcək...

**Rusiyanın Yekaterinburq şəhərində keçirilən əməliyyat zamanı Mail Əliyev adlı azərbaycanlı saxlanılıb. Lent. az-ın Rusiya KİV-nə istinadən məlumatına görə, Əliyevin üzərindən 4, 5 milyon rubl (təxminən 105 min manat) pul götürülüb.**

İlkin araşdırma zamanı məlum olub ki, onun üstündəki pullar Yekaterinburqdakı qalmaqallı 4 saylı meyvə-tərəvəz bazasından yığılmış və “qara kassa”ya çatacaq pullar imiş. Yerli KİV-lərin yazdığına görə, əslində bu pullar “obşak” üçün yığılmış vəsait olub.

Xatırladaq ki, bir neçə gün əvvəl adıçəkilən şəhərdə yerli OMON-un restoranların birində keçirdiyi əməliyyat zamanı 200-dək azərbaycanlı saxlanılmışdı. Həmyerlilərimizin yığışdığı restoranda şəhərdəki iri ticarət obyektlərinə “smotryayuşi” seçilməliydi. Bu məqsədlə hətta “qanuni oğru” “Rövşən Lənkəranski” Merab Suxumskini Yekaterinburqa göndərmişdi. Məlumatda bildirilirdi ki, şəhərin Kosmonavtlar küçəsi, 134 ünvanında yerləşən “Qulyaki” kafesindəki “sxodka”da tanımış “Rövşən Lənkəranski” Ural regionuna “nəzarətçi” kimi öz adamını - Ağayev Ağayar Hüseyn oğlunu qoymaq istəyib. Ağayar Ağayevlə bərabər bu “post”a “Kortik” ləqəbli başqa bir azərbaycanlı - İlqar Əliyev də iddialı imiş. Amma “Lənkəranski” son anda Ağayarın namizədliyinin üzərində dayanıb.

2014-cü ilin dekabrınadək Yekaterinburqun “smotryayuşi”si “Ded Xasan” kimi tanınmış “qanuni oğru” Aslan Usoyanın qohumu Timur Mirzoyev idi. Timur Mirzoyev 1962-cı ildə Tiflisdə anadan olub və “Ded” in yaxın qohumudur. O, 15 ildən çox məhkum həyatı yaşayıb. 1992-ci ildə vərəmli xəstələr üçün Nijni Tagel həbsxanasından azad olunandan sonra o, “Ded” in Uralda səlahiyyətli nümayəndəsi təyin edilib. Amma bir müddət sonra Uralda “Ded”in klanı parçalanıb. Nəticədə klanın bu regionda gəlirlərinə nəzarət edən “Trof” ləqəbli Andrey Trofimov və “Karo” ləqəbli Koroğlu Məmmədovun səlahiyyətləri də, “oğru” adı da alınıb. Bundan sonra Timur Mirzoyev Uralda əsas söz sahibinə çevrilib və “Sverdlovsk” ləqəbi alıb. “Timur Sverdlovski” 2014-cü ilin yanvarında Moskvada təcridxanada vərəmdən ölüb. “Timur Sverdlovski” milliyyətcə yezidi kürd idi. Aslan Usoyan öldürüləndən sonra onun qruplaşmasına bir müddət “Timur Sverdlovski” başçılıq edib. “Timur Sverdlovski”nin qruplaşmasında əsasən azərbaycanlı, kürd və gürcü kriminal avtoritetlər cəmləşmişdi. “Ded Xasan”ın qətlindən bir müddət sonra onun qətlində günahlandırılan “Lənkəranski”ni aradan götürən şəxsə 5 milyon dollar mükafat vəd edilən “sxodka”da Timur Mirzoyev də iştirak etmişdi. Onlar “Rövşən Lənkəranski”nin öldürülməsi üçün “büdcədən” 5 milyon dollar ayırmağı qərara almışdılar. Bu “sxodka”dan sonra “Lənkəranski”nin guya İstanbulda güllələnməsi və öldüyü xəbəri yayılmışdı. Amma sonradan xəbərin yalan olduğu üzə çıxdı.

Son günlər “Lənkəranski”nin Uralda öz mövqelərini möhkəmləndirmək üçün cəhdlər etdiyi xəbərləri gəlməkdədir. Hələ Timur Mirzoyevin ölümündən əvvəl “Ded Xasan” klanının Urala nəzarəti itirmək üzrə olduğu bildirilirdi.

Amma Timur Mirzoyevin ölümündən sonra Uralda nəzarətçi postunun boş qalması o demək deyil ki, “Ded Xasan” klanı buranı rahatlıqla əldən verəcək. Çünki Rusiya kriminal aləminin ən nüfuzlu nümayəndələrindən biri olan “Şakro Molodoy” ləqəbli Zaxari Kalaşov 2014-cü ilin oktyabrında İspaniya həbsxanasından azadlığa buraxıldıqdan sonra “Ded Xasan” klanına rəhbərlik edir. “Şakro” “Lənkəranski” ilə açıq qarşıdurmaya getmir, amma polis “svodka”larından belə görünür ki, kriminal qruplaşmalar arasında Urala nəzarət uğrunda gərginlik yaşanır. Ağayar Ağayevlə bağlı qərarın verilməsinə OMON-un basqısı, indi isə Mail Əliyevin saxlanılması kriminal aləmdə yeni savaşın başlamasını göstərir.

Yerli diaspora liderlərindən olan Şahin Şıxlınskinin məlumatına görə, o, Mail Əliyev adlı hansısa iş adamını tanımır. “Ola bilər ki, xırda ticarətlə məşğul olur. Bunu deyə bilmərəm. Amma üzdə olan iş adamlarından olsaydı tanıyardım”.

❑ **“Yeni Müsavat”**

# Azərbaycanlı iş adamının erməni hərbçilərə pul təklifinə reaksiya gəldi

## Paşa Məmmədovun təklifinə münasibət birmənalı deyil

**Ukrayna Qafqaz Xalqları Konqresinin İdarə Heyətinin sədri, iş adamı Paşa (İlisuyski) Məmmədov Qarabağda yerləşən erməni əsgərlərə səslənib. O, erməni əsgər və zabitlərinə təslim olmağı təklifi edib və bunun müqabilində onların hərəsinə 10 000, zabitə isə 15 000 dollar pul mükafatı vəd edib. Erməni hərbçilərə səslənən Paşa Məmmədov “O torpaqlar sizin deyil, heç sizin atalarınızın belə deyil, özgə torpağına təcavüz edərək ölməyə dəyərmi?” - soruşub.**



İş adamı Azərbaycana təslim olanlara Azərbaycan hökuməti tərəfindən təhlükəsizlik vəd ediləcəyini də söyləyib. Bundan başqa, o, təslim olanın özü ilə gətirdiyi silaha görə və verə biləcəyi məlumatın dəyərinə görə də xüsusi pul mükafatı təsis etdiyini açıqlayıb. Onun təklifi ictimaiyyətdə geniş müzakirəyə səbəb olub və birmənalı qarşılanmayıb.

**Məsələ ilə bağlı musavat.com-a danışan deputat Zahid Oruc bildirib ki, müharibə dövrünün öz qanunları var:** “Şübhəsiz ki, hər kəs bacardığı qədər bu millət davasına töhfə vermək istəyir. Lakin sözügedən şəxsi tanımıram, qeyd olunan informasiya yayılandan sonra ona qarşı olan reaksiyalardan məlumatım var. Düşünürəm ki, belə addıma qarşı süngü ilə çıxmaq da çox yanlışdır. Bir qisim şəxs hesab edir ki, bu, bizim döyüş ruhumuza mənfi təsir göstərə bilər. Digərləri iddia edirlər ki, ermənilər həmin vəsaitlərə ehtiyacları olduğunu hiss etdirib addımlar atarlar və sonra vəsaitlər hesabına əldə olunan tankı, topu əleyhimizə yönəldərlər. Üçüncülər isə düşünürlər ki, bu, ölkənin vahid hərbi siyasi xətt yürütməsinə mane olar və 1990-cı illərdəki bəlli vəziyyəti ortaya gətirər. Bütün bu rəyləri ümumiləşdirərək gəldiyim qənaət ondan ibarətdir ki, savaşda hər bir kəs malik olduğu resursu düşmən üzərində qələbəyə yönəltməlidir. Qələm sahibi qələmini silaha çevirməklə, informasiya məkanında döyüşən də özünün qarşı tərəfə vurduğu zərbələri ilə səngərdə dayanan əsgərlərimizə kömək etməlidir. Yeni müharibə şəraiti ölkəmizə daxil olduqda və konkret olaraq bütöv Azərbaycan təmas xəttinə çevrildiyi zaman, hamı özünü ordunun bir hissəsi kimi hiss etməlidir. Buna görə də bu təşəbbüsü normal qarşıladım. Hesab edirəm ki, ümumən ermənilərə münasibətdə Azərbaycanın mövqeyi Qarabağda onları tamamilə məhv etmək və ermənisiz Azərbaycan modeli qurmaq deyil. Necə ki, Ermənistan tərəfi bundan istifadə etməyə çalışır. Onlar istəyirlər ki, Qarabağdakı erməniləri bundan sonrakı illərdə də girov saxlayıb desinlər ki, baxın, əgər orada Ermənistan əsgəri ölməsə, Azərbaycan xalqı onlara nicat verməyəcək və yaşamaq imkanlarını tamamilə aradan qaldıracaq”.

**Z. Oruc bildirib ki, bu kimi çağırışlar imkan verir ki, ermənilər ən azı düşünsünlər:** “Hesab etmirəm ki, bu biznes adamı vəsaitini, sadəcə olaraq, havaya sovurmaq fikrindədir. Belə hesab edək ki, o, bu mövqeyini tamamilə hüquqi, sənədləşdirilmiş qaydada reallaşdırmaq istəyir. Belə olan təqdirdə ermənilər bu çağırışdan istifadə edib düşünəcəklərmi ki, bu, heç də onları təslimçiliyə vadar etmək və ya tələyə salmaq niyyəti deyil? Faktiki olaraq tutulmuş bu qədər böyük ərazilərə yetəcək qədər erməni yoxdur. Faktiki olaraq onlar Qarabağı, özündən 3 dəfə artıq ərazini guya əlində saxlayıb. Kimin vasitəsi ilə? Məhdud səviyyəli ordunun. Reallıq onu üzə çıxardı ki, Füzuli, Cəbrayıl və digər ərazilərə girmək üçün bir neçə gün kifayət edir. Bu baxımdan mövzuya daha əhatəli yanaşmaqla göstərmək istəyirəm ki, əgər kimsə özünün maddi vəsaitini də silaha çevirirsə, Azərbaycan dövlətinə bu vasitə ilə kömək etmək istəyirsə, onu normal qarşılamaq lazımdır. Bu, qətiyyən bizim döyüş ruhumuzu əngəlləmir. Onu da qeyd edək ki, Azərbaycan ordusu son əməliyyatlarda elə bir hünər göstərdi ki, indi heç bir kənar rəyə, mövqeyə baxmadan ölkəmizin hər bir vətəndaşı əsgərinə, zabitinə, bütövlükdə ordusuna güvənir”.

**Hərbi ekspert Üzeyir Cəfərov isə musavat.com-a açıqlamasında Paşa Məmmədovun bu təklifinin qəti əleyhinə olduğunu bildirdi:** “Biz gəlin özümüzü ucuzlaşdırmayaq. Azərbaycan əsgəri düşməni öz ərazisindən pulun gücünə çıxararsa, mən şəxsən xəcalət çəkərəm. Bu, çox yerində olmayan bir təklifdir. Belə çıxır ki, biz ərazimizi pulun hesabına qoruyuruq? Erməni əsgəri işğalçıdır və onun iki yolu var: ya öz torpağına çıxıb getməlidir, ya da biz onu cəhənnəmə vasil edib öz yerlərinə göndərəcəyik. Bu cür zərərli düşüncələri gündəmə gətirməyə lazım deyil. Neçə illərdir ki, mətbuatda və real həyatda bu cür şeyə rast gəlməmişəm. Bu bizim xeyrimizə olmayan bir işdir”.

❑ **Əli RAİS**

YENİ MÜSAVAT
N 78 (6399) 13 aprel 2016

# Yeni mənzil agentliyinin mənası-ayda 80-100 manata ev...

## Ekspertlər Mənzil İnşaatı Dövlət Agentliyinin yaradılmasını həm də tikinti sektorundakı xaosun nəzarətə alınması kimi qiymətləndirirlər

**Ölkə başçısının fərmanı ilə yaradılan Azərbaycan Prezidenti yanında Mənzil İnşaatı Dövlət Agentliyi mənzil bazarında yeni tendensiya yaradacaq. Ekspertlər yeni qurumun yaradılmasını tikinti sektorundakı xaosun nəzarətə alınması kimi qiymətləndirirlər.**



Fərmana əsasən, binaların tikintisini "MİDA" MMC-nin vəsaitləri hesabına kənar tikinti şirkətləri həyata keçirəcək. MMC-nin xərcləri isə dövlət büdcəsindən ödəniləcək. Tikinti işləri üzrə xərclərin ödənilməsi qaydaları Mənzil İnşaatı Dövlət Agentliyi tərəfindən müəyyən ediləcək. Binaların tikintisi "MİDA" MMC-nin sərəncamında olan torpaq sahələrində həyata keçiriləcək. Bununla yanaşı, "MİDA" MMC-nin sərəncamına verilən torpaq sahələrində inşa ediləcək tikinti obyektlərinin tikinti ərazisinədək mühəndis-kommunikasiya təminatı sisteminin və xətlərinin Mənzil İnşaatı Dövlət Agentliyinin müraciəti əsasında dövlət büdcəsinin vəsaiti hesabına çəkiləcək və bu işlər üzrə tədbirlər Nazirlər Kabinetinə tapşırılıb.

Nazirlər Kabineti torpaq sahələrini Mənzil İnşaatı Dövlət Agentliyinin müraciəti əsasında "MİDA" MMC-nin sərəncamına verilməsini təmin edəcək. Bunun üçün Nazirlər Kabinetinə ərazi zonalaşdırılması və ərazi planlaşdırılması baxımından yaşayış zonalarına *(həyətyanı sahələri olan fərdi yaşayış və bağ evlərinin tikintisi üçün nəzərdə tutulan ərazilər istisna olmaqla)* və ictimai-işgüzar zonalara aid edilən, hüquqi və fiziki şəxslərin istifadəsində və ya icarəsində olmayan dövlət mülkiyyətindəki torpaq sahələrinin MMC-yə pulsuz təqdim edəcək. Eyni zamanda torpaq sahələrinin bəzi hallarda xüsusi və ya bələdiyyə mülkiyyətindən ödənişli əsasla alınmasında nəzərdə tutula bilər.

Mənzillər alıcılara hansı şərtlərlə veriləcəyi isə hələ ki müəyyənləşdirilməyib.

**Milli Məclisin İqtisadi siyasət komitəsinin üzvü Vahid Əhmədov "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, qurum əsasən Sosial Mənzil Fondunun yaradılmasını həyata keçirəcək ki, bu sosial evlərin də imkansız ailələrə güzəştli şərtlərlə verilməsi nəzərdə tutulur:** "Nazirlər Kabinetinin birinci rübün yekunlarına həsr olunan iclasında cənab prezident xüsusən sosial evlərin tikilməsi ilə bağlı məsələyə toxundu. Mütəmadi olaraq mətbuatda da, Milli Məclisdə də bu haqda müzakirələr gedirdi. Düzdür, ipoteka kreditləri ilə vətəndaşlara evlər verilirdi. Bu gün sosial evlər layihəsi də həyata keçirilməyə başlayacaq. Bu təcrübə Almaniyada, Türkiyədə mövcuddur. Bu da əsasən, aztəminatlı ailələr üçün çox əhəmiyyətlidir. Ayda 80-100 manat və ya bir qədər artıq vəsait ödəməklə 25-30 ilə mənzil sahibi olmaq mümkün olacaq. Əhalinin mənzillə təmin olunmasında bu çox ciddi addımdır. Bundan başqa, tikinti prosesində yüzlərlə insan iş yeri ilə təmin olunacaq. Yalnız şəhərlərdə yox, rayon mərkəzlərində də belə evlər tikilib istifadəyə veriləcək. Bu da əhalinin mənzilə olan tələbatını müəyyən qədər ödəyəcək".

**Mənzil-tikinti məsələləri üzrə ekspert Nüsrət İbrahimov isə "Yeni Müsavat"a açıqlamasında MİDA-nın yaradılmasında iki məqsədin əsas götürüldüyünü bildirdi:** "Birincisi, prezidentin göstəriş verdiyi sosial evlərin tikintisinə başlanılması ilə bağlıdır. Yəqin ki, ilk növbədə sosial evlərin tikintisi ilə məşğul olan, növbəti mərhələdə onların idarəçiliyi ilə, bir dövlət qurumunun yaradılmasına zərurət yaranıb. İkincisi, ölkədə mənzil tikintisini tənzimləyən, qanunvericilik bazasını, tikinti standartlarını formalaşdıran bir vahid qurum yox idi. Yəqin ki, ikinci məqsəd də burdur. Ölkədə mənzil tikintisinə nəzarət edən vahid bir dövlət qurumunun yaradılmasına ehtiyac vardı və bu qurum da təsis edilib. Əsas bu iki məqsəd üzərində qurulub".

**Ekspertin sözlərinə görə, bu qurumun yaradılması mənzil bazarındakı bir sıra problemlərin də həllinə yol açacaq:** "Son illər göstərir ki, mənzil bazarında problemlər azalmır, əksinə, çoxalır. Aztəminatlı ailələrin mənzillə təmin olunması problemi gündən-günə artır. Bundan başqa, tikilən mənzillər bir çox tikinti normalarına cavab vermir. Tikinti xaotik şəkildə aparılır, vahid bir siyasət yoxdur. Yəqin ki, bu qurum həmin problemlərin müəyyən qədər həllinə gətirib çıxaracaq. Çox güman ki, bu qurumun təşkilatçılığı ilə sosial evlərin tikilməsi mənzil bazarında ucuzlaşma yaradacaq. Sosial evlərin satışı yəqin ki, mövcud ipoteka şərtlərindən daha yumşaq və daha əlçatan olar".

**Mənzil eksperti Ramil Osmanlı isə bildirdi ki, bu agentliyin yaradılmasında əsas məqsəd Azərbaycanda Sosial Mənzil Fondunun yaradılması və bu prosesin idarə olunmasıdır:** "Bir neçə gün öncə ölkə başçısı sosial mənzil fondunun yaradılması ilə bağlı göstəriş verdi. Buradakı müddəalar da onu göstərir ki, bu tikililərin yaradılması bilavasitə dövlət vəsaitləri hesabına həyata keçiriləcək. Azərbaycan Respublikasının «Satınalmalar haqqında» Qanununun tələblərinə müvafiq şəkildə müxtəlif şirkətlər tenderdə iştirak etmək hüququ qazanacaq və müqavilələrin icrasını həyata keçirəcək. Agentliyin torpaqları dövlət tərəfindən onun balansına verilmiş torpaqlar olacaq. Agentlik bu binaların tikilməsi üçün satınalma ilə bağlı tenderlər təşkil edəcək. Bu tenderlərdə iştirak edəcək tikinti şirkətlərinə müəyyən imtiyazlar veriləcək. Ən azından həmin ərazilərdə infrastruktur dövlət vəsaiti hesabına həyata keçiriləcək. Tenderin qalibi olan tikinti korporativləri kağız üzərində yaradılmış sıradan MTK-lar olmayacaq. Satınalma tenderlərində iştirak edən korporativlər bank qarantiyası təqdim etməlidirlər. Bu da müqaviləyə görə, ümumi məbləğin minimum 20 faizindən, bəzən 40 faizindən az olmamalıdır. Bu da o deməkdir ki, tikinti şirkəti 3 milyonluq bir satınalma müqaviləsini imzalamaq üçün ən yaxşı halda təxminən 900 min manat bank qarantiyası təqdim etməlidir".

Sosial Mənzil Fondunun yaradılması ilə bağlı müzakirələrə gəlincə, Ramil Osmanlı bildirdi ki, hazırda Azərbaycanda belə bir fonda ehtiyac var. İndi bu layihənin icrası ilə bağlı ən azından nəzəri addımlar atılıb. Reallaşması üçün də yaxın zamanlarda konkret addımlar atılacağı gözlənilir.

**Ekspertin sözlərinə görə, bu istiqamətdə normativ hüquqi aktların tənzimlənməsinə də ehtiyac var:** "Əsas məsələ sosial mənzillərin kimlərə verilməsinin tənzimlənməsidir. Bu mənzillərin paylanması zamanı, ümumiyyətlə, metodologiya nə cür olacaq? Bilirsiniz ki, elə adamlar var ki, onların müxtəlif MTK-larda 10-dan çox evi var, lakin qeydiyyatı yoxdur, çıxarışı yoxdur və adında mənzil yoxdur. Sosial mənzillərin paylanması zamanı həmin şəxslər də mənzil almaq üçün müraciət edəcəklər. Lakin adından da göründüyü kimi, bu, əsasən aztəminatlı ailələr üçün nəzərdə tutulur. Metod belədir ki, sosial kirayə müqaviləsi bağlayan vətəndaş uzun müddət o mənzildə kirayə yaşayır, pul ödəyir, ancaq əmlak onun mülkiyyətinə verilmir. Ancaq qanuna yeni dəyişikliklər edilərsə, o zaman söhbət həmin mənzilin müəyyən müddətdən sonra vətəndaşın mülkiyyətinə keçməsindən gedəcək. Yəni 25-30 ildən sonra vətəndaş kirayə kimi qaldığı evin mülkiyyətçisinə çevriləcək. Bu baxımdan qanunvericiliyə dəyişikliklər edilməsinə ehtiyac var".

❑ Nərgiz LİFTİYEVA

**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini
**d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

**Elan**

**Amerika və Kanadada təhsil və səyahət üçün bizə müraciət edə bilərsiz.**
**e-mail: travelaz2016@gmai.com**
**whatsapp: +1 845 300 7030**
**Tel: +99451 635 2408**

**Montində, Nərimanov Məhkəməsinin həyətində 2 maşınlıq daş qaraj satılır.**

**Obyekt kimi də istifadə etmək olar. Pultla idarə olunan jalüz qapıları var. Tavanı lambrin, döşəməsi tametdir. Ayrılıqda da istifadəyə yarayır. Sahibindən satılır, qiyməti bazar qiymətindən ucuz. Sənədi var.**

**Əlaqə nömrəsi (050) 264 49 99**

**Elan**

**Quba şəhəri H.Əliyev prospekti 227 ünvanında Eyvazova Səfurə Əbilqasım qızına məxsus evin 3395 nömrəli texniki pasportu və 361 reystr nömrəli qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**

**Yenilik! Rusiyada təhsil almış və Moskvada müdafiə etmiş**
tibb elmləri namizədi, təcrübəli həkim
**Darya İvanovna**

**varikoz və postvarikoz trofik yaraları, habelə diabetik yaraları özəl metodika ilə, cərrahi müdaxiləsiz müalicə edir.**
**Tel (051) 634-40-01.**

# İctimai nəqliyyatdan istifadə edən məşhurlar

## Onu prezidentlər də sevir, nazirlər də, baş nazirlər də...







**İctimai nəqliyyat biz azərbaycanlıların yaralı yeridir. Tıxaclar, yarıtmaz avtobuslar, bir-biri ilə yarışan sürücülər. Çox vaxt buna görə insanlar ictimai nəqliyyatdan imtina edirlər. Amma dünyada belə deyil. İnkişaf etmiş Avropa ölkələrində ictimai nəqliyyat, xüsusən də metro sevilən ictimai nəqliyyat növüdür. Bizdə manısların belə "piar üçün", metroya minib, selfe çəkdirməsi, daha sonra bu fotoları sosial şəbəkədə yayması isə göstərir ki, onlar bu məsələyə ekzotika kimi baxırlar. Əslində isə dünyada tanınmış şəxslərin ictimai nəqliyyatdan istifadə etməsi zaman-zaman medianın gündəminə gəlir. Bunun səbəbləri barədə bir qədər sonra....**

Bir neçə il əvvəlin söhbətidir. Müsavat deputat qrupunun iki üzvü - Pənah Hüseyn və Arzu Səmədbəyli Milli Məclisdən çıxıb avtobusa minir. Bu vaxt qrupun daha bir üzvü - İltizam Əkbərli A.Səmədbəyliyə zəng vurub hal-əhval tutur, harada olduğunu soruşur. A.Səmədbəyli hazırcavablığından qalmır: "Pənah bəy məni 250 minlik maşınla aparır indi".

İ.Əkbərli ani şok yaşasa da çox keçmədən deputat həmkarı söhbətin 250 min dollarlıq avtobusdan getdiyini açıqlayır.

***

Dünya siyasətində ictimai nəqliyyat istifadəçiləri az deyil. Bu günə qədər dünyanın bir çox tanınmış siyasətçiləri ictimai nəqliyyatdan istifadə edib, velosipedlə gəzintiyə çıxıb. Məsələn, şahzadə Çarlz həyat yoldaşı, Kornoul hersoginyası olan Kamilla ilə birgə metroya minib. Onlar bunu London metrosunun 150 illiyi münasibətilə edib. Gürcüstanın eks-prezidenti Mixail Saakaşvili, Böyük Britaniyanın baş naziri Devid Kemeronun da adı ictimai nəqliyyat sərnişinləri arasındadır.

"Yeni Müsavat" ictimai nəqliyyatdan istifadə edən məşhurların siyahısını və maraqlı hekayələrini hazırlayıb. Onlardan bəzilərini nəzərinizə çatdıraq.

### Ulduzların metro sevdası - ucuz piar?

2013-cü ildə türkiyəli şoumen Mehmet Əli Ərbil metrodan istifadə edib. Həmkarı Ümit Okurla birgə metroya minən tanınmış aktyor bunu İstanbuldakı tıxaclardan bezməsi ilə izah edib: "Metro çox rahatdır. Bundan sonra tez-tez istifadə edəcəm".

Buna baxmayaraq, Mehmet Əlinin ictimai nəqliyyatdan istifadə etməyə vərdişli olmadığı hiss olunub. Belə ki, o, Taksim əvəzinə, Maslaka gedib.

Hollivud ulduzları tez-tez ictimai nəqliyyatdan istifadə edərək sadə insanlarla eyni sırada durduqlarını nümayiş etdirirlər. Bunlardan biri də aktrisa Rene Zelvegerdir ki, o da metroda görüntülənib. Londonda metroya minən "Bricit Consun gündəliyi"nin ulduzu idman geyimində və qulaqlıqlarda olub. O, oturmağa yer tapmadığı üçün ayaqüstə yoluna davam edib.

Hollivud aktyoru Tom Henks də metroda fotosu olan məşhurlar sırasındadır. Henks minlərlə dollar dəyərində olan maşınlarını bir kənara qoyaraq ictimai nəqliyyatdan faydalanıb. Lakin metroya minən tanınmış aktyoru burada tanıyan olmayıb. "Oskar"lı aktyor Henks Nyu-York, Manhettendə metro ilə gəzib. Aktyorun əynində iri palto, başında isə papaq olub. Henks metrodan endikdən sonra bir fincan qəhvə alaraq yoluna davam edib.

### Kraliça yer altına düşəndə...

Britaniya kraliçası II Yelizaveta da London metrosunda yeni stansiyanın tikintisi ilə tanış olmaq üçün metrodan istifadə edib. Sözügedən stansiyaya kraliçanın adı verilib. O tuneldə tikintini aparan şirkət rəhbərləri və fəhlələrlə görüşüb, üzərində "Yelizaveta xətti" yazılmış lövhənin açılışını edib. Yeni stansiya və xəttin 2018-ci ildə istifadəyə verilməsi nəzərdə tutulur. Kraliça Yelizaveta 1969-cu ildə krallığın tarixində ilk dəfə metroya minən ilk qadın monarx olub.

Rusiyada yaşayan azərbaycanlı müğənni Emin Ağalarovun da metro görüntüləri var. Müğənni metrodakı fotolarını sosial şəbəkədə sevənləri ilə paylaşıb. Tıxaclara görə metrodan istifadə edən Eminin şəkilləri qısa zamanda minlərlə izləyicisi tərəfindən bəyənilib.

### Merlər də metronu tərcih edir, baş nazirlər də...

Nyu-York meri Bill de Blazio isə amerikalılara Ebolaya yoluxmaqla narahatlığa əsas olmadığını sübut etmək üçün metroya minib. Bir neçə il öncə mer Ebola virusuna həsr olunmuş mətbuat konfransında çıxış edib. O bildirib ki, amerikalıların narahatlıqları üçün əsas yoxdur.

**"Ebolaya yoluxmaq kifayət qədər çətindir. Əgər siz yoluxmuş şəxslə eyni vaqonda gedir və ya yanaşı yaşayırsınızsa, yoluxma riski yoxdur"**, - De Blazio bəyan edib.





Nyu-York sakinləri arasında təşviş Afrikadan qayıdan həkimdə Ebola virusunun təsdiqlənməsindən sonra başlayıb. Diaqnoz qoyulanadək həkim Kreyq Spenser Manhettendən Bruklina metro ilə gedib, eləcə də boulinq klubuna gedib və taksi ilə evə qayıdıb.

Kanadada doqquz il baş nazir postunu tutan Mühafizəkar Partiyasının yerinə gələn Liberal Partiyasının rəhbəri, baş nazir Justin Trudeaunun gündəlik qrafikində də metro mərhələsi xüsusi yer tutur. Mühafizəsiz, təkbaşına metro ilə işə gedən baş naziri görənlər onunla xatirə şəkli çəkdirməyə can atıblar. 43 yaşlı nazir ətrafdakılarla çox səmimi şəkildə ünsiyyət qurub.

Britaniyanın baş naziri Devid Kameron isə bu məsələdə əfsanələr yazıb. O, hətta olimpiadaya da metro ilə gedib. Metrodakı digər sərnişinlərlə söhbət edən, hərdən də qapıya söykənərək qəzet oxuyan Kameron daha öncə olimpiya oyunlarına metro ilə gedəcəyinə söz vermişdi.

### Prezidentlər metroda...

2015-ci ilin yanvarında İran prezidenti Həsən Ruhaninin metrodan istifadə etməsi böyük maraqla qarşılandı. Belə ki, xəbərdə bildirilirdi ki, Ruhani təmiz hava günü ilə əlaqədar şəxsi maşınından imtina edərək işə metro ilə gedib.

Hindistanda rəsmi səfərdə olan Fransa prezidenti də bir neçə il öncə Dehli metrosuna minib. Fotoları prezident Fransua Ollandı metro gəzintisində müşayiət edən Hindistanın baş naziri Narendra Modi tvitter hesabında paylaşıb.

❑ **Sevinc TELMANQIZI**



## Bakıda iki dəhşətli intihar

**Bakıda dəhşətli intihar hadisələri baş verib. Sabunçu qəsəbəsində yaşayan 1968-ci il təvəllüdlü Abışov Hamlet Vaqif oğlu ülgüclə boğazını kəsərək intihar edib. Çoxlu qan itirən H.Abışov hadisə yerindəcə keçinib.**

Bildirilir ki, 48 yaşlı H.Abışov xeyli müddət imiş ki, işsiz imiş. Qohumları onun əsəblərinin pozulduğunu deyiblər.

Faktla bağlı cinayət işi açılıb, araşdırma aparılır.

Qeyd edək ki, son 3 gündə Sabunçuda artıq 3-cü intihar hadisəsi baş verib. İstirahət günlərində Ramana və Balaxanı qəsəbələrində iki gənc oğlan özünü asaraq intihar etmişdi.

Daha bir intihar hadisəsi isə Yasamal rayonunda qeydə alınıb.

APA-nın DİN-in saytına istinadən verdiyi məlumata görə, aprelin 11-də Yasamal rayonu ərazisində yaşayan Bakı şəhər sakini - ruhi xəstə Rüxsarə Yunusova mənzilinin eyvanından (9-cu mərtəbədən) özünü atıb.

YENİ MÜSAVAT

Son səhifə

N 78 (6399) 13 aprel 2016



## Bu gəlinlik paltarı yeməlidir

Böyük Britaniyada dünyada ilk dəfə olaraq yeməli toy paltarı hazırlayıblar. Lenta.ru saytının xəbərinə görə, paltar Londonda 16 və 17 aprel tarixlərində keçiriləcək qənnadı sərgisində nümayiş etdiriləcək. Unikal gəlinlik paltarının hazırlanmasında qənnadçılar Silviya Elba, İvett Marnet və rəssam İlinka Rnik iştirak ediblər. Qadınlar bu işə 300 saat əmək sərf ediblər.

Bayram geyiminin uzunluğu 170 santimetr, çəkisi isə 75 kiloqram olub. Paltar üçün 1000 ədəd yeməli vafli kağızı, 35 kiloqram krem və 3 kiloqram dekorativ krujeva lazım olub. Qeyd edilib ki, bu şirin geyimi geyinmək olmaz.

Daha öncə isə Çini Tsindao şəhərində bir nəfər nişanlısı üçün 600 şardan ibarət gəlinlik paltarı hazırlamışdı.



## Evindəki ayaqyolunu icarəyə verir

London yaxınlığındakı Hayqeytdə bir ev sahibi öz evinin ayaqyolusunu kirayəyə vermək və ya satmaq istəyir. "Camdan New Journal"ın verdiyi xəbərə görə, Ceyms Atertonun evindəki ayaqyolu uzun illər istifadə olunmasa da, yaxşı vəziyyətdə qalıb. Ev sahibi ayaqyolu üçün 20 ilə 20 min funt tələb edir. Atertonun mənzili avtobus stansiyasından uzaqda yerləşmir. Onun fikrincə, bu təklif sürücülərin diqqətini cəlb edəcək. Ceyms evinin divarında "ayaqyolu ərazisi" sözləri yazılmış lövhə yerləşdirib. Ev sahibi hesab edir ki, bu addım onsuz da yerli icra qurumlarının ictimai ayaqyolunu bağlatdırmaq ideyasına uyğundur. Hazırda evinin ayaqyolusunu satmaq istəyən ev sahibinə diqqət böyük olsa da, hələlik ortada real alıcı yoxdur.

# Çörək sexini 1 avroya evsizə satdı

Fransanın Dol şəhər sakini Mişel Flaman şəxsi çörək sexini yerli evsizlərdən birinə simvolik məbləğə - 1 avroya satıb. Bu barədə "The Local" xəbər yayıb. Xəbərə görə, 2015-ci ilin dekabrında dəm qazından az qala boğulub dünyasını dəyişəcək kişini 37 yaşlı evsiz Jerom Okan xilas edib. Həmin vaxt J.Okan xilasetmə xidmətinə zəng edib, eyni zamanda 62 yaşlı sex sahibini də xilas edib.

Xəstəxanadan qayıdandan sonra sex sahibi təşəkkür əlaməti olaraq evsizi işə götürüb. Sex sahibinin sözlərinə görə, Jerom Okan olduqca tez bir müddətdə işin incəliklərini mənimsəyib və onun öhdəsindən gəlib. Onda kişi öz biznesini şagirdinə satmaq qərarına gəlib: "Məni pul yox, azadlıq maraqlandırır. Mən istirahət etmək istəyirəm. Eyni zamanda Jeromu da xoşbəxt edə biləcəmsə, niyə buna görə özümə icazə verməməliyəm?"



# 12 uşaq doğub, hamısını paylayıb

Amerikada bir bağ evində yaşayan 45 yaşlı Horlock yeddi ay sonra dünyaya gətirəcəyi körpəni qucağına almadan bir italyan cütlüyə verəcək. Amma bu, onun üçün çox adiləşmiş durumdur. İllərdir surroqat ana (daşıyıcı ana) kimi fəaliyyət göstərən qadın 12 körpəni də uşağı olmayan ailələrə verib. "Uşaqları ailələrə uzatdığım zaman onların üzündəki sevinci görmək hər şeyə dəyər" deyən Carole etdiyinin tək səbəbinin bu olduğunu açıqlayıb.

Ayrı-ayrı sevgililərindən 22 və 19 yaşlarında iki qızı olan Carole 1995-ci ildə bir çamaşırxanada işlədiyi vaxt daşıyıcı analığın nə demək olduğunu qəzetdən oxuyub. Sonsuz ailələrə görə ürəyi pis olan qadın həmin vaxt düşünüb ki, əgər doğmaq qabiliyyəti varsa, bundan insanlıq naminə istifadə etməlidir. Bu xidmətinə görə müəyyən miqdarda pul alan qadın bu işi pul üçün etmədiyini də dəfələrlə vurğulayıb.





## Dünyanın ən uzun ilanı öldü

Dünyanın ən uzun pitonu 10 apreldə Malayziyada ölüb. İlan tikinti meydanlarından birinin ortasında, üstünə ağac yıxılmış vəziyyətdə tapılıb. Ehtimal edilir ki, bu, qəza deyil, qəsdən ilanı öldürmə əməliyyatı olub. İlan bu günə qədər yaxalanan hər hansı başqa ilandan fərqli olaraq, öz uzunluğuna görə tarixə düşə bilər. Belə ki, onun uzunluğu 8 metrdir. Amma hazırda "Ginnesin rekordlar kitabı"nda ən uzun ilan kimi qeydiyyata düşən ilanın uzunluğu 7 metr 67 santimetrdir. Bundan başqa, o, çəkisinə görə də hazırda ən ağır ilanı geridə qoyub. Belə ki, onun çəkisi 250 kilodur. Amma amerikan ilanı cəmi 158 kilo olub. Hələlik Malayziya ilanının çəki və uzunluğunu könüllülər müəyyənləşdiriblər. Rekord qeydiyyatçıları tərəfindən hər hansı yoxlama baş verməyib.




QOÇ - Yorulmaq bilmədən çalışın ki, digər işləriniz də sürətlənsin. Fəaliyyətlə bahəm, münasibətlər sisteminə də fikir verməlisiniz. Əmin olmadığınız hansısa məsələ barədə riskə getməyin.

BUĞA - Hər məsələdə müəmma axtarmayın. Bütün addımlarınızı reallığa uyğun tərzdə atın. Gün ərzində sağlamlığınıza diqqəti artırın. Bələd olmadığınız heç bir işə qol qoymayın.

ƏKİZLƏR - Davranışlarınızı elə tənzimləyin ki, kiminsə gözündə kiçilməyəsiniz. Əgər kimlərəsə ürəyinizdən keçən müsbət fikirləri demək istəyirsinizsə, qətiyyən tərəddüd etməyin. Qidanıza fikir verin.

XƏRÇƏNG - "Nəhs gün" deyiminə əhəmiyyətsiz yanaşın. Çünki Allahın yaratdığı heç bir təqvim yaman olmaz - insanlar onu pis yozmasalar. Yalnız sağlamlığınızı qorusanız, bu təqvimi bəyənəcəksiniz.

ŞİR - İş müstəvisində yeni layihələrə imza atmaq istəyirsinizsə, bu gündən yaxşısını tapmayacaqsınız. Odur ki, bütün gücünüzü ortalığa qoymalı, boşuna vaxt itirməməlisiniz. Uzaq səfərə çıxmayın.

QIZ - Ətrafınızda baş verən proseslərdən sizə heç bir zərər gəlməyəcək, əksinə bəzi mövqelərinizə bir az da yaxınlaşacaqsınız. Bugünkü danışıqlardan imtina etməyin, çox pul xərcləməyin.

TƏRƏZİ - Naharaqədərki vaxtı səbrlə başa vursanız, hər hansı konfliktə getməsəniz, qarşınızda duran bu tarix sizi xeyli məmnun edəcək. Fəaliyyətinizdə müsbət dönüşlər də mümkündür.

ƏQRƏB - Bəzi gərginliklərdən keçməli olsanız da, risk etməməklə hər hansı zərərlə üzləşməyəcəksiniz. İnsanlarla, xüsusən də müdiriyyətlə ehtiyatlı davranın, kimlərinsə özəl həyatına qarışmayın.

OXATAN - Qarşınızda təzadlı bir gün durur. İştirakçısı olduğunuz proseslər ən müxtəlif istiqamətlərdə cərəyan edəcək. Situasiyaya uyğun davranmaqla uğurları cəlb edə bilərsiniz.

OĞLAQ - Daxili tərəddüdləriniz bu təqvimdən etibarən əriməyə başlayacaq. Sizi narahat edən əksər müşküllərə işıq düşəcək. Bu səbəbdən də hər bir şansa hazır olmalısınız. Sevgi hisslərinizi gizlətməyin.

SUTÖKƏN - Bu gün üzərinizə düşən başlıca vəzifə qarşılıqlı münasibətləri qaydasına salmaqdır. Ünsiyyətdə olduğunuz hər kəslə anlaşıqlı davranın. Günün ikinci yarısı qazanmaq ehtimalınız da var.

BALIQLAR - Hər mənada uğurlu gündür. Göy qübbəsi müdafiənizdə durduğu üçün ovqatınız xoş olacaq. Günün ikinci yarısında şəxsi büdcənizi artırmaq üçün şans qazanacaqsınız. Vaxt tapıb ziyarətə baş çəkin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## İsveç kralı marmelad və əti qadağan etdi



İsveç kralı XVI Qustav əhaliyə ət və marmelad məhsullarından daha az istifadə etməyi məsləhət görüb. O bildirib ki, bu, sağlamlıq və ekologiya baxımından olduqca vacib addımdır: "Mən ət istehsalı ilə məşğulam, amma özüm qırmızı ət yemirəm. Bu da tibbi və ekoloji səbəblərə görə belədir. Ət yeyilməsi təbii ki, faydalıdır, amma hər gün qanlı bifşteksi mədəyə ötürmənin heç bir faydası yoxdur". 69 yaşlı monarxın dediyinə görə, özü 1970-ci illərdən bəri kənd təsərrüfatı ilə məşğuldur, eyni zamanda insan orqanizmi ilə bağlı bütün biliklərə malikdir: "Ona görə də bir daha deyirəm ki, "hər şeydən az-az yemək" prinsipini unutmaq olmaz".

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 4.750

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.